**TURAL ƏLİYEV**

# “MƏN GENERAL OLACAĞAM”

***Amid Heydərov***

**BAKI – 2021**

**NAŞİR**
**Akif Dənzizadə**

**TURAL ƏLİYEV**
**“MƏN GENERAL OLACAĞAM” - Amid Heydərov.**
Bakı, **«Apostrof-A»,** 2021, – səh. 120

***Kitabın istifadəsiylə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.***

**© TURAL ƏLİYEV, 2021**

# PROLOQ

29 sentyabr 2020-ci il saat 17:45. Artıq 2 gün idi ki, müharibə başlamışdı. Hər yerdə qəribə sakitlik hökm sürür və hamı saat 18:00-da televizorda cəbhədən gələcək xəbərləri gözləyirdi. Qəfildən gələn telefon zəngi diqqətimizi yayındırdı. Qardaşım telefonu açdıqdan on saniyə sonra bənizi tamamilə ağardı. Dəstəyi asdıqdan sonra sanki söz deməyə cəsarəti yox idi. Hamıdan qabaq mən özümə hakim ola bilməyib soruşdum: "Qardaş, nə oldu sənə? Nəsə pis xəbər var deyəsən". O, isə özündən qeyri-ixtiyari bir şəkildə gözləri dolaraq: "Amid... Amid şəhid olub deyəsən... Hələ tam dəqiq deyil, bəlkə də sağdır..?"

Mən özümdən asılı olmayaraq sanki ayaqlarım yerdən kəsildi, amma hələ içimdə bir ümid var ki, Amid sağdır. Çünki qızğın döyüşlər davam edirdi və cəbhədən tam dəqiq məlumat almaq mümkün deyildi.

Artıq beynimdə bir fikir var idi. Amid necədi?

3 oktyabr 2020-ci il tarixində Amidin nəşi Lerik rayonunda dəfn olunmasından sonra, düşüncələrim tamamilə iflic olmuşdu.

Biz onu qalib ordunun Generalı kimi gözləyirdik... qismət olmadı.

8 noyabr 2020-ci ildə Şuşanın azad olunmasından sonra artıq Amidin ruhunun rahatlıq tapdığına əmin idim. Çünki qəhrəmanımızın ən böyük arzusu Lələtəpə yüksəkliyinə qalxdığı kimi Şuşaya da ilk daxil olmaq istəyirdi. Şuşanın

azad olunması qəhrəmanın qanının bir daha yerdə qalmadığını sübut etmişdir.

Vətən müharibəsində Azərbaycan ordusu Amidin tankı ilə yardığı ön xətti keçərək, Cəbrayıl şəhərindən irəliləyərək oktyabrın ortalarında Hadrut qəsəbəsini ələ keçirmişdir. Hansı ki, rəşadətli Azərbaycan ordusunun irəlilədiyi bu zəfər yolunun alınmasında igid komandirimizin iştirakı olmuşdur.

Söhbət prezident İlham Əliyevin 2020-ci il dekabrın 9-da imzaladığı sərəncam ilə "Vətən müharibəsi qəhrəmanı" kimi yüksək ada layiq görülən, Həzi Aslanov məktəbinin davamçılarından olan tank qoşunlarımızın şəhid mayoru Amid Heydərovdan gedir.

****

**Heydərov Amid Rəbbil oğlu** dünyaya 20 may 1988-ci ildə ucqar dağ rayonu olan Lerikdə göz açmışdır. Hələ körpə olduğu zaman sevinib, gülərkən gözlərinin içi yaşarırdı. Bu xüsusiyyətinə görə atası Rəbbil kişi və anası Şükufə xanım onun adını Amid qoymuşdur. Amid sözünün mənası şən, dost və səxavətli deməkdir. Evin ilk oğlan uşağı olmuş və gəlişi ilə ailənin sevimlisinə çevrilmişdir. Gülən üzü və mehriban baxışı ilə insanların qəlbində özü üçün yer tapmışdır.

Amid körpə olduğu zaman sakit və mülayim təbiətli olmuş, günün çox vaxtını oyuncaqları ilə oynayaraq keçirtmişdir. Oyuncaqları ilə oynadıqdan sonra onları rəfə düzüb barmağıyla qırmızı maşınını göstərib ən çox sevdiyi oyuncağının o olduğunu deyərdi. Rəbbil kişi oğlunun uşaqlığını xatırlayaraq deyir:

"Amid uşaq vaxtı maşın oyuncaqları ilə oynamağı çox sevərdi. Heç vaxt əlindən yerə qoymadığı bir qırmızı maşını var idi. O, maşını itirdiyi zaman hər yeri axtarıb tapa bilməyəndə bir küncə çəkilib səssiz ağlayardı. Tapdığımız zaman o balaca sevimli əlləri ilə bizi qucaqlayıb sevgisini belə etiraf edərdi. Çox keçmədi ki, Heydərovlar ailəsinə daha bir sevimli oğul qismət oldu, adını Asim qoydular. Asim isə Amidə nisbətən dəcəl uşaq olmuşdur. Amid bundan sonrakı sevgi dolu həyatını tək addımlamayacaqdı.

Hər bir insan üçün ona əziz olan yerlərdən biri də onun uşaqlıq dövründə yaşadığı məhəllə, ilk dostları ilə tanış ol-

duğu məkandır. Artıq beş yaşı olanda Amid də dostları ilə bir yerdə oynadığı öz doğma məhəlləsində uşaqların məktəbə getdiyini görüb atasının onu da məktəbə göndərməsini istəmişdir. Rəbbil kişi oğlunun həvəsini görüb onun üçün məktəb ləvazımatları, əlifba və riyazi hesablama kitabları alaraq oğlunu daha da həvəsləndirmişdir. Bu addım Amidin təhsilinə birbaşa müsbət təsir göstərmişdir. Məktəbə hazırlıq dövründə dərslərini dayısı oğlu Ceyhunla yerinə yetirərdi. Məktəb vaxtına qədər artıq Amid əlifbanı və rəqəmləri sərbəst saymağı öyrənmişdir. Rəbbil kişi və Şükufə xanım oğlunun uşaqlığını xatırlayaraq deyir:

"Amidə məktəbli forması və dərs ləvazımatları almaq üçün onu mağazaya aparmışdıq. Aldığımız məktəbli formasının içində o balaca sevimli əllərini alqış şəklində bir-birinə vuraraq, bizə baxan sevincli üzünü hələ də unuda bilmirik. Seçdiyi dəftərlərin çoxunun üzərində qırmızı maşın şəklini göstərərək, "Bu mənim maşınımdır" deyirdi".

1995-ci ilin sentyabrın 1-də Amid kasıb, amma zəhmətkeş Rəbbil kişinin və ona indiki yaşına qədər bütün sevgisini verən Şükufə xanımın əlindən tutaraq xalqın mədəniyyət beşiyi olan məktəbə ilk addımını atmışdır. Hər uşaq kimi o, da ilk dəfə valideynlərindən bir neçə saatlıq ayrı qalacağı üçün bir az kədərli idi. Rəbbil kişi oğluna boş yerə kədərləndiyini başa salmaq üçün onunla parkdakı oturacaqda oturdu və dedi:

"Oğul, kədərlənməyə və yaxud müəllimdən qorxmağa ehtiyac yoxdur. Çünki uşağa ilk addım atmağı öyrədən valideyni olduğu kimi, ilk dəfə qələmi düzgün tutub səhvsiz

yazı yazmağı öyrədən də müəllimi olmuşdur. Biz də sənin yaşında olanda məktəbə getmişik, amma hələ də ilk müəllimimizi unuda bilmirik. Çünki bizə yazı yazmağı öyrədən və elm qapısının açarını təqdim edən müəllimdir. Sənin də belə müəlliminin olacağına əminəm. İndi isə gedək dostların məktəbdə səni gözləyir". Amid atasının sözlərindən sonra səbirsizliklə məktəbə çatacağını gözləyirdi. O, təhsilini Valeh İbrahimov adına inteqrasiya təlimli internat tipli gimnaziya məktəbində almışdır. Birinci sinifdə oxuyanda dərslərdə çox fəal iştirak etmişdir. İstər Azərbaycan dili dərsində səlis oxumağı, istər riyaziyyat dərsində hesablama qabiliyyəti olsun, sinifdə nümunəvi şagirdlərdən biri olmuş, səliqəsinə görə hər zaman seçilmişdir.

Amid babasını görməsə də nənəsi ona heç vaxt babasının yoxluğunu hiss etdirməmişdir. Nənəsi Qızqayıd Heydərova Amidin unudulmaz uşaqlığını xatırlayaraq deyir:

"Amid mənim gözümün qabağında böyümüşdür. Məktəbdən gələn kimi dəftərlərini gətirib, qiymətlərini göstərib, "Nənə, bax, yenə beş almışam" deyərdi. Arada ona pul verərdim ki, özü üçün məktəbdə yemək alsın, amma o pula dəftər, qələm alıb daha çox dərslə məşğul olurdu. Uşaq vaxtı mehriban və sevimli bir uşaq idi. Amid yay tətilində uşaqlarla oynamağa sərf edilən zamanı keçdikləri dərsləri təkrar edər, yeni tədris ilinə hazırlaşardı. Özündən kiçik olan qardaşı Asimə məktəbə hazırlaşmasına kömək edər, öz ləvazımatlarını onunla bölüşər və məktəbdə öyrəndiklərini ona da öyrədərdi.

Yay tətili bitmiş, artıq ikinci sinif başlamışdı. Sinifə

yeni uşaqlar gəlmiş və Amidin dostları çoxalmışdı. Dərsin elə ilk həftəsində müəllim uşaqların bilik səviyyəsini yoxlamaq üçün sınaq keçirmişdir. Amid bu sınaqda fərqlənən uşaqlardan olmuşdur. Eyni zamanda, o bu il 18 oktyabr, 20 yanvar, Xocalı faciəsi və 31 mart azərbaycanlıların soyqrımı kimi digər müsabiqələrdə iştirak edərək fərqlənmişdir. Bu həftə isə hamının demək olar ki, hər yerdə daha bir şanlı qələbədən danışdığını görən Amid qaça-qaça evə gəlib, evdəkilərin "Sizi dünyalar qədər sevirdim" adlı filmə baxdığını görüb atasından soruşdu: "Ata, bu qələbə nədir? Nəinki məktəbdə, hər yerdə insanlar bu qələbədən danışır".

Rəbbil kişi: "Oğul, sabah, yəni 9 May keçmiş SSRİ dövlətinin faşizm üzərində qələbə çaldığı gündür.

Amid: SSRİ hansı dövlətdir? Faşizm nə deməkdir?".

Rəbbil kişi oğlunun böyük maraqla onu dinləməsini və hər nüansı öyrənmək istədiyini görüb daha həvəslə danışmağa başladı: "Oğul, əvvəl Azərbaycan da daxil olmaqla bəzi ölkələr SSRİ adlanan böyük bir dövlətin tərkibində idi. Bu zaman 1941-1945-ci ildə başqa böyük bir dövlət olan Almaniya ilə müharibə zamanı qələbə çaldığımız üçün hər il 9 may Qələbə günü kimi qeyd olunur. Azərbaycan da müharibədə fəal iştirak etmişdir. Bu film həmin müharibədə iştirak etmiş qəhrəmanımız Həzi Aslanov haqqındadır. İndi başa düşdün oğul?

Amid: Başa düşdüm ata, çox sağ ol".

Bu zaman televiziyada Səməd bəy Mehmandarovla Həzi Aslanovun dialoqu gedirdi:

S.Mehmandarov: Təbrik edirəm! Lənkəranlısan?

H.Aslanov: Bəli.

S.Mehmandarov: Təhsilinizi davam etdirmək üçün sizi Leninqrada göndərirlər. Həmyerlimə görə şadam!

H.Aslanov: Yoldaş briqada komandiri! Mən yeddi yaşımda olanda siz məndən soruşdunuz nəçi olmaq istəyirsən?

S.Mehmandarov: Doğrudan? Ola bilər! Bəs siz nə cavab verdiniz?

H.Aslaov: Mən cavab vermədim.

S.Mehmandarov: Yadıma düşdü...

H.Aslanov: Çünki "GENERAL" olmaq istəyirdim!..

Amid yenidən atasından soruşdu: "Ata general nə deməkdir?

Rəbbil kişi: General, yüksək əsgər komandasına baxan hərbiçiyə deyilir, oğul".

Amid filmin davamına baxarkən, Həzi Aslanovun tank sürməyinə baxıb yüksək və həyəcanlı səslə qışqırdı: "Mən də general olmaq istəyirəm!"

Bu zaman evdəki ailə üzvləri Amidin bu sözünə gülüb demişdir: "Bəli oğul, dərslərini yaxşı oxusan, sən də general olarsan".

Amid filmdən sonra səhəri gün məktəbdə keçiriləcək müsabiqə üçün inşasını yazıb burada iki dəfə Sovet İttifaqı qəhrəmanı adına layiq görülmüş Həzi Aslanovun qəhrəmanlıqlarından bəhs etmişdir.

Digər yazıları kimi bu yazısı ilə də fərqlənən Amidi ilhamlandıran "General olacağam" sözü onun bundan sonrakı siniflərdə və gələcək həyatında yönləndirici vasitə olmuşdur. Artıq Amid ikinci sinifi əla qiymətlərlə bitirmiş və

yay tətilinə çıxmışdır. Bu yay tətilində o, həm dostları ilə oynuyub, dərs oxumuş, həm də hərbi sahə ilə maraqlanmağa başlamışdır.

Dayısı oğlu Ceyhun o illəri belə xatırlayır: “Uşaq vaxtı biz məftildən arabalar düzəldərdik. Həmişə çalışardıq ki, mənim və digər dostlarımın arabaları Amidin arabası kimi səliqəli olsun. O, daha çox bəzək vururdu arabasına. Həmin vaxtlar hamımızın qəribə arzuları var idi. Mən deyərdim kaş ki, digər uşaqların iki addımı mənim bir addımım olsun. Amid isə deyərdi ki, mənim sağ əlimlə sol əlimin yeri səhv düşüb, gərək sağ əlim solda, sol əlim isə sağda olardı”.

Üçüncü sinifdə artıq Amid riyaziyyat fənnindən bəzi misalları müəllim izah etməmiş yerinə yetirir və Azərbaycan dil dərsindən isə “Qəhrəman əsgər”, “Ana Vətən”, yəni vətənpəvərlik mövzusunda yazılacaq yazıları gözləyirdi. Bu il Amidin məsuliyəti daha da artmışdı, çünki bu il qardaşı Asim də məktəbə gedirdi. Ona dərslərində kömək etmək lazım idi. O, bu il qardaşının da onunla məktəbə getdiyi üçün çox xoşbəxt idi. İnsanın nə qədər dostu olursa olsun qardaşı kimi yaxın dostu ola bilməz. Həm də özünə yol yoldaşı qazanan Amid qardaşı ilə səhər yol getdikləri zaman bir-birlərinə dərslərdən suallar verər, həm də dərslərini təkrarlamış olardılar.

Qardaşı Asimin xatirələrindən:

“Biz yol gedərkən qardaşım mənə dərslərdən suallar verər və hər gün tapşırardı ki, əsas mövzuları yaxşı-yaxşı təkrarla. O, məndən böyük olduğu və həmçinin dərslərini yaxşı oxuduğu üçün hər zaman elə bir sual axtarırdım ki,

Amid ona cavab verə bilməsin, amma bütün cəhdlərim boşa çıxırdı. Boş vaxtlarında mənə hərbidən danışırdı. O qədər müharibə haqqında kinolara baxmışdı ki, məlumatı çox idi. Lerik rayonunda qış adətən çox sərt keçir. Bu vəziyyət maşınların hərəkətinə mane olmasına baxmayaraq, uşaqların oyun oynaması üçün əlverişli şərait yaradırdı. Qışda bu bərəkətli qarın yağmasına sevinən uşaqlardan biri də Amid idi. Qar yağan kimi xizəyini götürüb, evlərindən aşağı gedən yolda sürüşər və paltarları islanana kimi oynayırdı. Həmin gün həyətdə ailənin bütün üzvləri üçün qar adamı düzəltməsə evə gəlməzdi. Bu il də bitmişdi. Amid artıq dərslərini və imtahanlarını əla qiymətlərlə bitirmişdir. Bu yay tətilində də kiçik Lerik rayonunda böyük xatirələrlə yadda qalmışdır. Amid məhəlləsində uşaqların ondan böyük olmasına baxmayaraq hamısı ilə dostlaşmışdı.

Dördüncü sinifdə isə Amid "General olmaq" istəyini yerinə yetirmək üçün müharibə və qəhrəmanlarımız haqqında məlumat toplayırdı. Birinci dəfə televiziyada görəndə qorxduğu zirehli texnikalar və tanklar haqqında məlumat toplayan, gələcəkdə tank sürməyi düşünən oğlan elə hey bir gün "General" olacağını xəyal edirdi. Amidin hərbi sahəyə olan marağı günbəgün artmış və nəzərə çarpacaq həddə gəlib çatmışdı. Amid öz bibisi oğlanlarına da baxıb qürur hissi keçirirdi. Çünki onlar da hərbiçi idilər. Onlar da Amidin vətənpərvər ruhda böyüdüyünü görüb onunla fəxr edirdilər. Onlar düşünürdülər ki, Həzi Aslanovun davamçısı olmaq çətin olsa da, şərəfli bir peşədir. Rəbbil kişi də onunla razılaşırdı. Əgər Rəbbil kişi sabah Seymur və Teymurun

gələcəyini deyərdisə Amid dərs bitəndən sonra qaça-qaça gəlib onlarla vaxt keçirərdi. Onlara birinci Qarabağ müharibəsindən və şəhidlərimiz haqqında suallar verərdi. Daha çox qəhrəmanlarımızın döyüş yolu haqqında məlumatları özü üçün qeyd edərdi. Məktəbdə müsabiqələrdə bu məlumatların çox böyük köməyi olurdu. Bu yay tətili boyunca o, dostlarını unutmur, tez-tez görüşüb dərs oxuyurdular. Onlar bilirdilər ki, gələn il artıq özlərinə məqsədli bir yol seçməlidirlər. Amid isə artıq hazır olduğunu düşünürdü, bircə uğurlu addımlar qalırdı.

Amid məktəb vaxtlarından çox intellektli, çevik qərar verən, analitik düşüncəyə sahib biri idi. Beşinci sinifdə oxuyanda dəsrlərinə eyni qaydada davam edir, digər uşaqlara dərslərdə kömək edirdi. Müəllim sinifdə uşaqlar arasında sorğu keçirdəndə böyüyəndə hansı peşəyə sahib olacaqsınız, Amid general olacağını deyirdi. Müəllim səbəbini soruşanda Amid deyərdi:

“Mən General-Mayor Həzi Aslanovun yolunu davam edəcəm, torpaqlarımızı azad edəcəm, şəhidlərimizin qanı yerdə qalmayacaq müəllim! Mən hər dəfə onların şəkillərinə baxanda və televiziyada Qarabağ müharibəsi qəhrəmanlarının video lentlərinə baxanda sanki onlar deyirlər: “Məktəbinizi və dövlətinizi sevin, elmli və mənəviyyatlı olaraq məmləkətimizi çiçəklənən bir dövlətə çevirin, biz çatdıra bilmədiklərimizi siz çatdırın”. Onlar bizim üçün qəhrəmanlıq və vətənpərvərlik təcəssümüdür. Onların bu istəyini yerinə yetirəcəm”. Müəllim: “Afərin oğul! Belə də davam et! Bundan sonra sən təkcə şagird Heydərov Amid deyil, Gene-

ral Amidsən!" bu sözlərdən sonra Amidin sevincinin həddi-hüdudu yox idi.

Dayısı oğlu Ceyhun həmin dövrləri belə xatırlayır:

"Həmin gün Amid kimi görürdüsə müəllimin ona dediklərini bir-bir sadalayırdı. Daha çox bayramlarda əyləncəli vaxt keçirərdik. Novruz bayramında papaq atardıq, təkər yandırardıq, yığışardıq ətrafına. Yayda isə daha ox meyvə yığmaq üçün bəhsə girərdik. Rayonda kimi tanıyırdıqsa onların bağlarından alma, armud yığardıq. Yayda isə daha çox oyunlar oynayardıq. Sonra balaca daşları üst-üstə yığıb qala düzəldərdik, sonra daş atıb onları yıxıdardıq. Yoxluyardıq ki, kim daha möhkəm düzəldib. Tətildə dərslərimizə də həmişə fikir verərdik, 5 saat oyun oynayacaqdıqsa 3 saat da dərs oxuyardıq.

Altıncı sinifdə Amidin dərslərindəki nailiyyətlərinin ardı-arası kəsilmirdi. Bu il məktəbdə vətənpərvərlik mövzusunda keçirilən müsabiqədə 10-11-ci sinif şagirdləri iştirak edirdi. Kiçik siniflərdə də bacarıqlı olan uşaqlar iştirak edəcəkdilər. Amid də burada seçilmiş vətənpərvərlik mövzusunda şeirlər və mətnlər səsləndirmişdir. Müsabiqədə rayon icra hakimiyyətindən, hərbi xidmətə çağırış üzrə şöbədən nümayəndələr iştirak etmişdir. Növbə suallara çatanda isə balaca əl qaldıraraq demişdir:

"Sualım hərbi komissaradır. Mən gələcəkdə hərbiçi olmaq istəyirəm və bunun üçün nə etməliyəm?".

Komissar və müsabiqədə iştirak edən müəllimlər təəccüblənmiş, bu yaşda uşağın gələcək haqqında fikirlərini heyrətlə dinləmişdilər. Komissar cavab olaraq demişdir:

“Oğul, sən dərslərini yaxşı oxu. 9-10-cu siniflərdə karyeranı müəyyənləşdirərsən. Uşaqlar, təkcə Amid yox, hamınız 9-10-cu siniflərdə gələcəyinizi qurmağa başlayacaqsınız. Amid artıq özünə peşə seçib. Xahiş edirəm, onu alqışlayaq. Əgər o gələcək siniflərdə fikrini dəyişməsə onun uğurlu addımlar atacağına mən inanıram”.

Amid məktəb və hərb sənətinə olan marağı ilə birlikdə dostlarını da unutmurdu. Hamısının ad günlərində iştirak edər, bayramlarda yanlarında olardı. Amid tez-tez əmisigilə gedər, günün 1-2 saatını onlarda keçirərdi.

Əmisi Rauf Amidin uşaqlığını belə xatırlayır:

“Amid tez-tez bizə gələr, məktəbdəki uğurlarından danışardı. O zamanlar mən polis işləyirdim. Amid mənim formama baxıb, “bir gün mən də bu formaya oxşar bir forma geyinəcəm” deyərdi. Paqonlara çox böyük dəyər verərdi. O vaxtlar mən işə polis maşını ilə gedib gələrdim. Amid mənə maşını səliqəyə salmaqda kömək edərdi və hətta bəzən özündən maşına bəzəklər vurardı”.

Amid əmisi oğluna da dərslərində kömək edərdi. Onlar demək olar ki, eyni həyətdə böyümüş, eyni ailənin tərbiyəsini almışdır. 7-8-9-cu siniflər bütün uşaqlar üçün çətin bir dönəmə çevrilir. Çünki dərsliklər artır və imtahanlar bir az sərtləşir. Bu siniflərdə Amid fizika və riyaziyyat fənlərini yaxşı oxuyurdu. Humanitar sahəyə marağı olmasa da tarixdən bəzi dərsləri müəllim izah etməmiş özü müstəqil öyrənirdi. Dərsliklərdə ən çox marağına döyüşlər haqqında olan məlumatlar, orduların qarşı-qarşıya düzülmüş tankları və strateji nöqtələrin azad olunması üçün aparılan əməliyyat-

lar almışdır.

Dayısı oğlu Ceyhun 9-cu sinifi xatırlayaraq belə deyir:

“Dərslərimiz o vaxtlar çətin olsa da bir-birimizə kömək edərək çalışırdıq ki, sinifdəki uşaqlardan geri qalmayaq. Riyaziyyat və Coğrafiya fənlərini çox yaxşı bilirdik, amma ingilis dilindən ikimiz də zəif idik. Həmin vaxtlar Rəbbil dayının Vaz 21011-i var idi. Onu Amid, mən və qardaşım rəngləmişdik. Amidin maşın sürməyə çox həvəsi var idi. Elə vaxt olurdu ki, Amid həmin maşını və əmisinin maşınını sürərdi. Sonra bir gün Rəbbil dayı dedi ki, su çəkmək lazımdır. O, fəhlə çağırmaq istəyirdi. Mənimlə Amid dedik ki, biz çəkə bilərik. Həmin gün suyu çəkəndən sonra Rəbbil dayı bizə hərəyə bir şirvan (iki manat) vermişdi. Çox zəhmətkeş idi Amid. Nə vaxt belə işlər olardı və yaxud kömək lazım olardı həmişə irəli atılardı. Amid digər müsabiqələrdə fəal iştirak etmiş, həmin illərdə Bizim Xəzər 22 aprel Ümumdünya Yer Gününə həsr edilmiş məktəblilərin ekoloji müsabiqəsində fəal iştirak etdiyinə görə sertifikat ilə təltif olunmuşdur. O, artıq 9-cu sinfi yaxşı qiymətlərlə bitirmişdir. Məqsədinə çatmaq üçün qarşısında cəmi iki il qalırdı. Amid bu iki ilin bir göz qırpımında bitməsini istəyirdi”.

10-11-ci siniflərdə Amid çağırışaqədərki hazırlıq dərsindən sinifdə birinci idi. Hərbi müəllimi Mübariz müəllim Amidin fəallığını belə xatırlayır:

“Mən Amidə 10-cu sinifdə dərs deməyimə baxmayaraq, onu 6-cı sinifdən tanıyırdım. Vətənpərvərlik tədbirində mən də iştirak etmişdim. Onda bildim ki, Amid hərb sənətini seçəcək. 10-11-ci sinifdə mən Amidi sinifdə tağım ko-

mandiri təyin etmişdim. O, dərsdə uşaqları cərgəyə düzür, müəllimə raport verirdi. Onun raport vermə qabiliyyəti çox səlis idi, sanki peşəkar bir zabit danışırdı. Çağırışaqədərki hazırlıq dərsində motaatıcı bölmənin təşkili və idarəedilməsi var. Amid tez-tez bu dərslərdə mənə suallar verərdi. Bu dərslərdə tanklardan və zirehli transpartiyordan söhbət gedir. Amid mənə sual verərdi. BTR-də şəxsi heyət neçə nəfərdən ibarət olur? BMP-də neçə nəfər olur? Mən artıq Amidin tankçı olacağını anlamışdım".

Sinif yoldaşı Ruslan Məmmədov ən yaxın dostunu belə xatırlayır:

"Amid bizimlə eyni yaşda olmasına baxmayaraq, düşüncələri yaşlı bir insanın düşüncələri kimi dərin və mənalı idi. Ona görə də biz dostlar arsında ona ağsaqqal deyərdik. Biz fərqli məktəblərdə oxusaq da çox yaxın dost idik. Hazırlıqlara bir yerdə gedərdik. Gedərkən yol boyu Amid mənə tanka olan marağından, Həzi Aslanovun davamçısı olmaq arzusundan, ən əsası isə Vətənə bağlılığından danışardı. Amid hərbi sahəyə hazırlaşanda digər dərsləri bir yerdə yerinə yetirərdik. Boş vaxtlarında futbol oynayardıq. Adətən digər məktəblərlə rəqib komanda olardıq. Biz fərqli məktəbdə oxumağımıza baxmayaraq mən həmişə Amidgilin komandasında olurdum.

Amid Ali Hərbi məktəbə hazırlıq dövrünü keçirdi. O, boş vaxtlarında zəhmətkeş atasının öz əməyi sayəsində ərsəyə gətirdiyi yeməkxanada çalışar və bu yolla atasına dəstək olardı. Ofisiant işləməsinə baxmayaraq Amid müştərilərin sevimlisinə çevrilmişdir. Müştərilər o olmayan günlər Ami-

di soruşar və bir də nə zaman burda olacağını öyrənərdilər.

Rəbbil kişi o günləri xatırlayaraq belə deyir:

"Amid həmin dövrlər hazırlığa gedərdi. Vaxtı olan kimi mənim yanıma gəlib mənə kömək edərdi ki, mən yorulmayım. Ordan hazırlığa gedəndə bir dəfə olsun mənə deməzdi ki, ata,mənə pul lazımdır. Mən özüm də pul verəndə Amid israrla geri çevirərdi. Sonra bilərdim ki, israrla verdiyim pulları yığıb öz əlavə pulunu ödəyib".

Amid artıq 11-ci sinfin sonlarına çatmışdı. O, da hər bir gənc kimi bir də məktəbə gedə bilməyəcəyi üçün təəssüf hissi keçirirdi. Çünki artıq onlar əvvəlki kimi bir yerdə ola bilməyəcəyini və istədikləri vaxt bir-birlərini görə bilməyəcəkdilər. Onlar 11 il ərzində bütün sevgisini verən müəllimləri və bir yerdə sevinci, kədəri paylaşan sinif yoldaşlarını unuda bilmirdi. Nə qədər xatirə şəkilləri çəksələr də yenə o günlərin yerini vermirdi. İmtahana bir gün qalmışa kimi hazırlaşan Amid və Ceyhun imtahan nəticələrini gözləyirdilər. Onlar ikisi də Ali Hərbi Akademiyaya daxil olmuşdular. Valideynləri və bəzi qohumları Amidin yüksək bal topladığına görə başqa bir məktəbə getməsini istəmişdilər. Amidin isə dilində bir şüar var idi: "Mən General olacağam, Həzi Aslanovun yolunu davam etdirəcəyəm, ermənilərin başını əzəcəyəm!".

Həyata öz baxışı, öz düşüncəsi olan Amid bu 11 illik təhsili müddətində möhkəm biliklərə sahib olmuş və həyat yolunda çox təcrübə qazanmışdır. O, böyüklərin heç bir sözünə etiraz etmədən razılıq verən bir gənc olmuş və adətənənəyə yüksək dəyər verən valideynlərinin tərbiyəsini,

xeyir-duasını alaraq, müstəqil həyata ilk addımlarını atmağa başlamışdır. O, Azərbaycanın cənub-şərq regionunun ən gözəl güşələrindən ucqar dağ olan Lerikdə böyüyüb, boya-başa çatmış və Lerik camaatının rəğbətini qazanmışdı. Uşaqlıqdan torpaqlarımızın işğal olunması ilə barışmayan və amalı gələcəkdə tankçı olmaq, müharibə başlayarsa öz komandirlik məharəti ilə Azərbaycan ordusunun heç bir dövlətin ordusundan zəif olmadığını sübut etmək idi. O, Qarabağ problemini həll etmək və gənclərə sağlam gələcək bəxş etmək istəyirdi.

Artıq 2006-cı ilin sentyabr ayı yaxınlaşırdı. Amidin Ali Hərbi Akademiyaya getməsinə sayılı günlər qalırdı. Amid və Ceyhun son dəfə dostları ilə görüşüb vidalaşırdılar. Amid artıq dostları, yaxınları ilə vidalaşır, onlara hərbiçi diplomu gətirəcəyini və bir gün onlara işğaldan azad olunmuş torpaqlarımızdan zəng vuracağından danışırdı. Nəhayət, bərəkətli bir yay səhəri rayondakı bütün qohumları Rəbbil kişinin evində Amidi uğurla yola salmaq üçün toplaşmışdılar. Amid ilk öncə kasıb, amma qürurunu heç nəyə dəyişməyən atası, sonra ona bu yaşına kimi saf sevgisini və qayğısnı verən anasıyla vidalaşdıqdan sonra, onu digər nəvələrində ayırmayan və ona babasını yoxluğunu hiss etdirməyən nənəsinə “darıxma nənə, tələbə olaraq gedirəm, hərbiçi olaraq geri dönəcəm”, deyərək könlünü almağa çalışırdı. Bir küncdə dayanıb, hər zaman yanında olub, hər dərdi-sərini paylaşdığı, gözləri dolmuş qardaşına və ona təsəlli verməyə çalışan əmisi oğluna demişdir:

“Mən bir müddət burada olmayacam, ailəmiz sizlərə

əmanət! Özünüzdən muğayat olun...”

Qardaşı və əmisi oğlu:

“Sən narahat olma qardaş, sən özündən muğayat ol, gözün arxada qalmasın. Səninlə fəxr edirik. Azərbaycan əsgəri! Uğurlar! Yaxşı yol!”

Amid və Ceyhun növbə ilə digər qohumları ilə vidalaşdıqdan sonra yola düzəlirlər. Amidi və Ceyhunu burada qarşılayan əmisi Maqsud Amidə demişdir:

Sən bu qədər yaxşı oxuyursan, imtahanları yüksək nəticə ilə bitirmisən, gəl hərbi məktəbə getmə. Amid öz cavabında “mən getməyim, o getməsin, bu getməsin, bəs kim getsin, bəs torpaqlarımızı kim azad edəcək?”. Əmisi Amidin həvəsini görüb başqa heç nə demədən sənədlərini məktəbə verməsinə kömək etmişdir.

Amid məktəbə başladığı ilk gündən burada yeni dostlar qazanmışdır.

Burada Lerik rayoyundan olan dostları çox idi. Rəhmətov Əbülfəz, Cavadov Cəlil və Ceyhun, həm yaxın dost, həm də kursant olmuşdular. Ceyhun kursant illərini xatırlayaraq belə deyir:

“Amid Hərbi məktəbdən əvvəl də nizam-intizamlı idi. Məktəb vaxtı tamam hərbi əsaslara uyğun şəkildə xidmət göstərərdi. Həmin vaxt akademiyada keçid balı 160 idi. Amid kursdan-kursa keçəndə keçid balı olduğu kimi qalırdı. Amid həmişə mənə deyərdi ki, sən də gəl imtahanlara hazırlaş, bir intizamlı ol, mən dinləmədim. Mən qaydalara riayət edə bilmədiyim üçün bir il sonra yollarımız ayrıldı. Amid akamideyada da dərslərində fəal olduğu üçün imta-

hanlarda həmişə yüksək nəticə göstərərdi. Həmin il birinci kurs bitdikdən sonra Amid yay tətilini Lerikə gəlib, istirahətini orada keçirərdi".

Qardaşı Asim kursant qardaşını belə xatırlayır:

Amid ən çox iyul aylarında Lerikə gələrdi. Dostları ilə bir yerdə olanda R.Əbülfəzin və C.Cəlilin yanında mən Amidin adını çəkərdim. Onlar deyərdilər ki, o, bizim böyük qardaşımızdır. Amid akademiyada oxuduğu zaman öz dərslər ilə yanaşı, dostlarına da kömək etmiş, dayaq olmuşdur.

Artıq ikinci kurs başlamışdı. Bu il dərslərin məsuliyyəti daha da artmışdı. Mayor Orxan Abdullayev kursant illərini xatırlayaraq belə deyir:

"Biz Amidlə bir yerdə daxil olmuşduq, məktəbdə onunla bir tağımda xidmət edirdik. Kursant vaxtında çox çevik və məsuliyyətli idi, ona görə də onu manqa komandiri təyin etmişdilər. Həmişə deyib gülən, mehriban və yaxın dost olub. Texnikaya çox böyük həvəsi vardı. Həm tank, həm də avtomobilə güclü həvəsi var idi. Müəllim texnika haqqında nəsə danışmaq istəyəndə Amid ondan qabaq həmin mövzuda məlumat verərdi. Belə xüsusiyyətlərinə görə də müəllimlər qarşısında böyük hörmətə malik idi. Amid oxuduğu müddətdə vaxt olduqca Bakıda olan əmisi və dayısına baş çəkib, onları yaddan çıxartmazdı. Dayısı oğlu Samir o günləri belə xatırlayır:

"Amid akademiyada oxuduğu vaxtlar mənim 4 yaşım vardı, amma bizə hər gələndə onun zabit forması diqqətimi cəlb edərdi".

Mayor Quliyev Şəhriyar kursant illərini xatırlayaraq

belə deyir:

“Mən Amidlə akademiyaya daxil olduğum ildən dost idik. Amid içimizdə tankçı olmağa həvəsli kursant idi. Ona görə də tankı hamıdan daha yaxşı öyrənirdi. Heç vaxt Həzi Aslanov dilindən düşmürdü. Özü də cənub zonasından olduğu üçün həmişə onunla fəxr edər və davamçısı olacağını deyərdi. Amid çox saf, təmiz bir gənc idi. Ona görə də mən onun xətrini digər yoldaşlarımdan fərqli istəyirdim. Bu vaxtlar qardaşı Asim də Bakıda Akademiyaya yaxın ərazidə yeməkxanada işləyirdi”.

Qardaşı Asimlə bağlı iləri belə xatırlayır:

“Amid ikinci kursda oxuyanda mən də Bakıda işləyirdim. Amid hər həftənin şənbə və bazar günündə yanıma gələrdi. Heç vaxt məni nəzarətsiz qoymazdı. Necə deyərlər yaşayarkən yanınızda bir qardaşınız varsa yaşamaqdan qorxmayın. Çünki yıxıldığınız zaman əlinizdən tutub qaldıracaq qardaşınız var. Həyatda insana iki adam dayaq olur, bir dostu, bir də qardaşı. Amid mənim üçün həm dost, həm də qardaş olub. Amid ikinci kursu müvəffəqiyyətlə bitirmişdi. Bu il də dostları ilə rayona gələn Amid məktəb dostlarını da unutmurdu.

Sinif yoldaşı Ruslan Məmmədov ən yaxın dostunu belə xatırlayır:

Amid məktəbdən əvvəl intizamlı bir gənc idi. Akademiyada oxuyanda isə tamam bir zabit kimi formalaşmışdı. Biz bunu daha çox nədən hiss edərdik, əgər görüş vaxtı təyin edilirdisə, biz gecikərdik. Görərdik ki, Amid həmin vaxta görüş yerindədir. Hətta vaxtdan əvvəl gələrdi. O zamanlar biz

universitetdə oxuyardıq. Amid 2008-ci il 26 iyun "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi yubileyi" medalı ilə təltif olunur. Bununla fəxr edirdi.

Amid üçüncü kursda oxuyanda məktəbdə və dostları arasında böyük nüfuza sahib idi.

Mayor Nahid Nəcəfov kursant illərini belə xatırlayır:

"Amidi mən birinci kursdan tanıyırdım. Çox mərd və qocaq oğlan idi. Həmişə ürəyiaçıq oğlan olub nəyəsə ehtiyac olurdusa çalışardı ki, sənə kömək etsin. Mənim ixtisasım topçu olmağına baxmayaraq çox yaxın dost olmuşduq. Bir dəfə buraxılışa şəhərə gəzməyə çıxmışdıq. Gəzdikdən sonra akademiyaya qayıtmaq üçün yola çıxdıq. 20 yanvardan neftçilərə kimi gəldik. Orada gördük ki, 2 manat pulumuz qalıb. Onda adama bir dönər alıb ya məktəbə piyada gedəcəkdik, ya da məktəbə avtobusla gedib, ac gəzəcəkdik. Həmin vaxt həm gənc idik, həm də bizə düzgün qərar dönər almaq olmuşdu. Həmin gün Neftçilərdən Zığa kimi piyada gəldik. Yol boyu 4-5 saat deyib, güldük, elə də məktəbə çatdıq".

Amid Akademiyada tankçı olmaq xəyalını reallaşdırdığı üçün Amid çox sevincli idi.

Bu zamanlar Asim də hərbi xidmətdə olduğuna görə hər həftə sonu qardaşını görə bilmirdi. Qardaşı Asim xidmət vaxtını belə xatırlayır:

"Mən xidmətdə olduğum vaxtda biz tez-tez görüşə bilməzdik. Çünki mən o zaman Qazax rayonunda sərhəd qoşunlarında xidmət edirdim. O, akademiyada tətildə yanıma gələndə tək gəlməzdi. Bir qazaxlı kursant dostu var idi. Onunla bir yerdə gələrdi. O, da mənə Amidin akademiyada-

kı uğurlarından danışardı".

Rəbbil kişi oğlunun kursant illərini belə xatırlayır:

"Amid yayda gələrdi Lerikə, gələndə də mütləq kursant yoldaşları da onunla gələrdi. Kursant yoldaşları həmişə deyərdilər ki, "Rəbbi dayı, içimizdə ən kiçik kursant Amid olsa da aramızda tankçı olmağa ən həvəsli kursantdır. Biz Amidə baxdıqca bu sahəyə olan marağımız daha da artır".

Amidin dördüncü kursu müvəffəqiyyətlə başa vurması onun gələcəkdə savadlı zabit kimi yetişməsində böyük rol oynamışdır. Azərbaycan Respublika Müdafiə Nazirinin 23 iyun 2010-cu il tarixli əmri ilə "leytenant" hərbi rütbəsi almışdır.

Akademiyanı bitirdikdən sonra Amid böyüyüb boya-başa çatdığı Lerik rayonuna gəlmişdir. Hər işdə olduğu kimi yenə də ailəsinin xeyir-duasını almaq üçün gələn Amid bir vaxt ailəsinə verdiyi sözü tutmuş və diplomu ilə geri dönmüşdü. Rayondakı sinif yoldşlarını unutmamışdı. Onlar hamısı Amidi təbrik edir, uğurlar arzu edirdilər. Görüş zamanı Amid demişdi:

"Artıq bir arzum yerinə yetdi, tankçıyam! Amma torpaqlarımız azad olmadığı müddətdə biz əsl zabit sayılmırıq".

Amid artıq işinə başlamaq üçün yola düşməli idi. Ailəsinin ondan ayrılmağı çətin olsa da, şərəfli bir peşə seçmişdi. Onun üçün də Amid ailəsini təsəlli etmək üçün Vətən dardadır, bir gün sizinlə işğaldan azad olunmuş torpaqlarımızdan zəng vurub danışaram deyərdi.

Amid ilk xidmətini Ağcəbədi rayonundakı N saylı hərbi hissədə tağım komandiri kimi yerinə yetirmişdir. Qısa müd-

dətdə şəxsi heyət arasında böyük hörmətə və nüfuza malik leytenant Heydərov təlimlərdə həmişə fəal iştirak etmişdir.

8 sentyabr 2010-cu ildə "Nümunəvi xidmətinə və eləcə də qoşun təcrübəsini uğurla başa vurduğuna görə" fəxri fərman ilə təltif edilmişdir. Tanka olan hədsiz marağı onun burada da birinci olmasına gətirib çıxarır. Amid burada nəinki öz tağımında, həm də ali zabit heyəti qarşısında böyük nüfuza malik idi.

Polkovnik-Leytenant Vüqar Qurbanov Leytenant Heydərovu belə xatırlayır:

"Amidin dostlarının içində mənim qədər Amidə yaxın olan bir insan olmayıb. İlk tanışlığımız 2010-cu ildə olub. Həmin vaxtlar briqadalarda təzə tank birlikləri yaradılırdı. Onda da Amid mənim bölüyümdə xidmət edirdi. Yeni gələn vaxtlar balacaboy, arıq bir leytenant idi. Dostlar arasında çox öyük nüfuza sahib idi. Həmişə də tankçı olmağı ilə fəxr edərdi. Tank xarab olardısa komandir kimi kənarda durmurdu, tağımı ilə bir yerdə tankda işləyirdi. Biz Amidlə xidmətdən əlavə dost olmuşuq. Məzuniyyətə bir yerdə çıxırdıq, istirahətə bir yerdə gedərdik. Amid burada nümunəvi xidmət göstərdiyinə görə 2011-ci ildə Bakıya gələrək burada Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisası kursu"nu bitirmişdir".

Yenidən 2011-ci ildə Ağcəbədi rayonundakı N saylı hərbi hissədə xidmətini davam etdirmişdir. Mayor Əliyev Atabəy leytenant Heydərovu belə xatırlayır:

"Amidlə mən kursant vaxtından bir-birimizi tanıyırdıq. Akademiyadan sonra mən 2010-cu ildə Ağcəbədiyə gəldim.

Məndən 1 il sonra Amid gəldi. Həmin vaxtlar mən başqa uşaqlarla kirayə evdə qalırdım. Amid gələndən sonra səmimi münasibətimiz yarandı. Daha sonra Amid, gizir Zahidov Elməddin və mən ev tutduq, bir yerdə qaldıq. Gün keçdikcə dostluğumuz möhkəmləndi və elə alındı ki, biz ailəvi dosta çevrildik. Əlində olanı dostları ilə paylaşmağı sevirdi. Mən rayona gedəndə onlara qonaq gedərdim. O, bizə qonaq gələrdi. Bir müddət sonra mən bölük komandiri oldum. Bölüyümdə görmək istədiyimi dostlarımdan biri Amid idi. Dostları ilə münasibəti yüksək səviyyədə idi. Tabeçiliyində olanların qayğısına qalardı. Qısa müddətdə çox yaxşı dost olduq".

Gizir Zahidov Elməddin Leytenant Heydərovu belə xatırlayır:

"Amidlə 2011-ci ildə Ağcəbədidə N saylı hərbi hissədə tanış olduq. Mən həmin hərbi hissəyə gələndən 10 gün sonra Amid də gəldi. Vətəninə çox bağlı zabit idi. Əgər tank xarab olardısa bizimlə bir yerdə düzəldərdi. Hərbi hissəyə yeni gələn əsgər və zabitlər tank haqqında nə isə soruşanda onları yönləndirib, deyərdik ki, get Leytenant Heydərovdan soruş. Mən onda MAXE (müddətdən artıq xidmət edən) işləyirdim. Amid isə tağım komandiri idi. Çox yaxşı münasibətimiz var idi. Həmin vaxt bir ildən çox bir yerdə qalmışıq. Mən, leytenant Əliyev Atabəy və leytenant Heydərov. Çox sadə insan idi. İşdən gələndən sonra biz bir iş görəndə o da geri qalmırdı. Savadlı zabit olmaqla yanaşı, idmanı da yaxşı bilirdi. Zabitlərdən 10-15 nəfərə forma yaxşı yaraşırdısa biri də Amid idi. Forması kimi tankı da səliqəli olurdu. Hə-

mişə birinci seçilirdi".

Bütün tədbirlərdə seçilən Amid 6 noyabr 2011-ci ildə 9 Noyabr "Azərbaycan Respublikası Dövlət Bayrağı Günü" və "Qurban Bayramı münasibətiylə və xidməti vəzifələrin yerinə yetirilməsində fərqləndiyinə görə" fəxri fərman ilə təltif olunmuşdur. Amid də hər bir Azərbaycan gənci kimi 2012-ci ildə iyun ayının 24-də ailə həyatı qurmuşdur.

Şükufə xanım oğlunun toyunu xatırlayaraq belə deyir:

"Amid artıq iki il idi ki, xidmətə başlamışdı. Xidmət yoldaşları və Ağcəbədi rayonundakı mülki əhali arasında o qədər hörməti var idi ki, toyun iki yüz nəfərə yaxın insanı ona görə gəlmişdi. Amid həmişə bizim başımızı uca tutaraq, insanlar arasında böyük hörmət qazanmışdır. Qardaşına həmişə dayaq olmuş, onu tək buraxmamışdır".

Amid uşaqlıqdan maşınlara olan marağını gizləyə bilmirdi. Bütün yol qayda-qanunları haqqında tam məlumatı olması onun ömrü boyu qəzasız maşın idarə etməsinə zəmin yaratmışdır.

Xidmətində üst-üstə uğurlar qazanan Amid 2013-cü il "26 İyun Azərbaycan Silahlı Qüvələrinin 95 illiyi" yubiley medalı və 2013-cü ilin 1-ci tədris dövründə "Qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə" fəxri fərman ilə təltif olunmuşdur.

Amid 2014-cü ildə baş leytenant rütbəsi alaraq bölük komandiri vəzifəsinə yüksəlmişdir.

Amid baş leytenant rütbəsi aldıqdan sonra ailəsi ilə birlikdə Beyləqan rayonuna köçmüşdür. Burada N saylı hərbi

hissədə bölük komandiri vəzifəsində işləmişdir. Ağcəbədidə olduğu kimi burada da Amidin nümunəvi xidməti davam edirdi. Elə həmin ilin avqust ayının yekunlarına əsasən komandir olduğu bölmənin "Döyüş hazırlığında və qarşıya qoyulmuş tapşırıqların yerinə yetirilməsində əldə etdiyi nailiyyətlərə görə" fəxri fərman ilə təltif olunmuşdur. Bölüyün qarşısında böyük hörmətə malik komandirimiz gündəlik həyatda gizir və əsgərlərlə nə qədər səmimi davransa da, təlimlərdə bir o qədər sərt və tələbkar olmuşdur. Amidin komandiri olduğu bölükdə xidmət edən əsgərlər deyirlər ki, Amid təlimlərdə heç vaxt güzəştə getməzdi. Qarşıya qoyulan tapşırıqların dəqiqliklə yerinə yetirilməsini tələb edərdi. Əsgərlərin sözlərinə görə sözlərində həmişə bir intiqam hissi duyulardı. Bizə çox vaxt özü akademiyada oxuduğu müddətdə Azərbaycanın milli qəhrəmanı Mübariz İbrahimov haqqında eşitdiklərindən dəhşətə gəldiyindən və gələcəkdə belə qəhrəmanlarımızın çox olacağına əmin olduğundan danışardı. Ehtiyatda olan əsgər Tural Əhmədov komandiri belə xatırlayır:

"15 gün idi ki, Beyləqanda N saylı hərbi hissədə xidmət edirdim. Amid Heydərov həmin dövrlərdə baş leytenant idi. Hərbi hissədəki əsgərlər onun səliqəsindən danışırdı. İşinə çox bağlı idi. Dostları onun xətrini çox istəyir, ona hörmət edirdilər. Biz on beş gün həmin hərbi hissədə qaldıqdan sonra bizi böldülər. Amma mənim üçün həmin hərbi hissədən ayrılmaq çətin oldu".

Amid işi ilə birlikdə valideynlərini və qohumlarını da unutmur. Tez-tez onlara baş çəkirdi. Rəbbil kişi oğlunu xa-

tırlayaraq belə deyir:

"Amid işində çox məsuliyyətli idi. İşində uğurlarının ardı-arası kəsilmirdi. Bir dəfə nümunəvi xidmətinə görə Müdafiə Naziri tərəfindən saatla mükafatlandırılmışdır. Onlar, onun səliqəsinə, tanklara qayğısına görə və qısa müddət ərzində tam hərbi əsaslara uyğun şəkildə bir bölük yaratdığı üçün minnətdarlıqlarını bildirmişdilər".

Amid 2015-ci il 20 mart Novruz bayramı münasibətilə "Döyüş və ictimai siyasi hazırlıqda, qoşun xidmətinin təşkilində nailiyyətlərinə görə" fəxri fərman ilə təltif olunur.

Gizir Zahidov Elməddin Baş-Leytenant Heydərovu belə xatırlayır:

"Amid Beyləqanda xidmət etdiyi vaxtda da çox yaxşı münasibətimiz var idi. Həmin vaxtlar Ağcəbədiyə gələrdi, görüşərdik. Həmişə gələndə də bizimlə çörək kəsərdi, ən azından çay süfrəsi açardıq. Böyük-kiçik yeri bilən, mərd və çox zarafatcıl idi".

Kapitan Həsənov İbrahim Baş-Leytenant Heydərovla işlədiyi zamanları belə xatırlayır:

"Amid bir zabit kimi eyni zamanda, bir komandir kimi çox savadlı idi. Biz onunla Beyləqanda bir yerdə işləmişik. Amid mənim bölük komandirim olub. Həmin vaxtlar mən təzə xidmətə başlamışdım. Amid mənim kimi zabitləri həmişə istiqamətləndirirdi və gələcəkdə daha güclü ordu olması üçün təlimlərdə bütün əməyini ortaya qoyurdu. Qərargah mədəniyyəti, zabit şəxsiyyəti içində özünü necə aparmalıdır, oturduğu kabinet necə olmalıdır. Bütün bu xidmətləri Amid mənə öyrətmişdi. Həmişə zabitləri başa

düşürdü. Əsgər zabit səhv edirdisə düşünürdü ki, zabitdir. Səhv edə bilər. Heç vaxt səhvimizi üzümüzə vurmazdı, bizə yol göstərərdi. Əslində bizi bir-birimizə bağlayan başqa bir məsələ var idi. Valideynim Beyləqana gəlib, məni görmək istəyirdi, amma mən dedim ki, bəs burada yer yoxdu. Mən özüm hərbi hissədə qalıram. Amid mənə dedi ki, "Zəng elə valideynin gəlsin. Sənin valideynin mənim valideynimdi. Gəlsin, bizə get. Valideynini gör". Amidin bu insani keyfiyyətləri bizi bir-birimizə bağlayırdı. 2015-ci il 24 sentyabr tarixində Qurban bayramı münasibətilə döyüş və ictimai-siyasi hazırlıqda qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə görə təltif olunmuşdur".

Amidin zabit olduğu dönəmdən xəyal etdiyi arzusunun artıq həyata keçməsinə sayılı günlər qalırdı. Əsgər və zabit heyəti gənc baş leytenant Amid Heydərovun gözlərində bir atəş olduğunu söyləyirdilər. Əsgərləri komandiri heç vaxt belə yüksək əhval ruhiyyədə görməmişdilər.

Artıq aprelin 1-dən 2-nə keçən qızğın döyüşlər başlamışdı. Bölük döyüş hazırlığı vəziyyətinə gətiriləndə Amid bilirdi ki, sahə minalandığı üçün irəlidə öz tankı ilə gedəcək.

Mübariz ruhu alovlanan Amidin tankı ilk əmri alan kimi nərildəyib irəli şığıdı. Bu müddətdə isə qəhrəman komandir ailəsinə döyüşdə olduğunu demirdi. Çünki evdəkiləri nigaran qoymaq istəmirdi. Aramsız döyüşlər davam etdiyi bir vaxtda, Azərbaycan Ordu hissələrinin piyada qüvvələrini düşmənin aramsız atəşindən qorumaq üçün Amid 305 nömrəli tankı ilə atılır. Erməni işğalçı qüvvələri strateji Lələtəpə yüksəkliyini müqavimətsiz tərk etmək istəmir-

dilər, çünki bu yüksəklik növbəti döyüşlərdə Azərbaycan Ordusunun mövqe üstünlüyünə səbəb olacaqdı.

Ermənilərin əsas atəş nöqtəsi təqribən bir neçə saniyəlik Amidin diqqətlə müşahidə apardığı optik nişangahın hədəfinə düşür. İti zəka və dərin məntiqə malik komandir, bir andaca qərar verir. “Atəş!”, deyə Amid bütün gücü ilə hayqırır. Od saçan mərmi bir anın içində qarşındakı istehkamı göyə sovurur. Qarşı tərəfdən atəş səsi kəsilir. Amid yenidən “Tam sürətlə arxamca!” əmri verir. Bir neçə dəqiqədən sonra Amidin tankı artıq Lələtəpə yüksəkliyinə qalxır. Düşmən əsgərləri Azərbaycan ordusunun tanklarını qarşılarında görəndə gözlərinə inana bilmirlər...

Amidin bu qəhrəmanlığı diqqətdən yayınmır. 4 gün davam edən Aprel döyüşləri başa çatandan sonra Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə baş leytenant Amid Heydərova vaxtından əvvəl kapitan rütbəsi verilir. Ordan Bakıya motoatıcı tabor komandirinin maddi-texniki təminat üzrə müavini kursuna göndərilir. Lakin xidmətdə mükəmməlliyinə görə bu vəzifədə çalışmadan birbaşa qərargah rəisi kursuna göndərilir və belə yüksək vəzifəyə layiq görülür. Vəziyyət sabitləşdikdən sonra Amid evə dönmək üçün yola düzəlir.

Qonşusu Habil dayı Amidi belə xatırlayır:

“2014-cü ildən Amidi tanıyırdım, o zaman baş leytenant idi. Ev axtarırdı və mənə müracitə etdi. İlk baxışdan onun torpağına, Vətəninə bağlı bir insan olduğunu anlamışdım, onunla qardaş kimi idik. O isə mənə “dayı” deyərdi. Təsadüfən bizə qonşu olan ev boş idi və həmin gündən Amidlə

qonşu olduq. Aprel döyüşləri vaxtı mənə zəng vurdu və dedi ki, dayı, ailədə uşaqlardan muğayat ol. O vaxtlar Şəmsin 2 yaşı olardı. Bircə onu deyə bildim ki, özünü qoru, gözün arxada qalmasın. Döyüşlərdə böyük şücaət göstərmişdi. Döyüşlər bitəndən sonra mənə zəng vurdu ki, dayı, döyüş bitdi. Mənə kapitan rütbəsi verdilər. Beyləqanda görüşdük, onu görən kimi gözlərim doldu. Amidin üzündən öpdüm, rütbəsini təbrik etdim. Özünün sevincinin həddi-hüdudu yox idi. Sonra axşam saat 9-10-da gələndə deyərdim ki, gəl bir stəkan çay iç, gedərsən. Heç vaxt yox deməzdi. Çox maraqlı günlərimiz olub Amidlə".

Gizir Zahidov Elməddin döyüşləri belə xatırlayır:

"Amidin həmişə bir sözü var idi: "Vətən dardadı!". Aprel döyüşləri zamanı da beynində tək fikir var idi ki, Vətən dardadı. Döyüşlərdə çox fəal iştirak etmişdi. Hələ döyüşlərdən əvvəl Amid "təlimlərdə döyüş və ictimai-siyasi hazırlıqda qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə görə" fəxri fərman ilə təltif olunmuşdu".

Amid döyüşlər bitdikdən sonra doğma rayonuna qayıtdı. Valideynləri Amidi döyüşdə onlara xəbər etmədiyi üçün danlasalar da, onunla eyni zamanda, fəxr edirdilər. Amid dostları ilə görüşdüyü zaman onlar Amidi qəhrəman adlandırsalar da Amid təvazökarlıq göstərərək "hələ döyüşlərimiz qabaqdadır. Bir gün sizə Şuşadan zəng vuracam və deyəcəm ki, torpaqlarımız işğaldan azad olunub".

Amid bir neçə gün rayonda qalıb hamı ilə təəsüratlarını bölüşdükdən sonra Ağcəbədiyə, yeni vəzifəsinə geri dönmüşdü.

Amid 2016-cı il böyük qələbədən sonra Ağcəbədi rayonundan N saylı hərbi hissədə kapitan qərargah rəisi təyin olunur. Döyüşdə olduğu kimi işində də nümunəvi xidmət göstərirdi. Xidməti müddətində Kapitan Heydərov Amid "Silah və texnikaların payız-qış mövsümü istismarı şəraitinə keçirilməsi zamanı döyüş hazırlığını yüksəldərək əldə etdiyi nailiyyətlərə görə" fəxri fərman ilə təltif olunmuşdur. Amid eyni zamanda, əvvəl işlədiyi xidmət yoldaşları ilə eyni hərbi hissədə xidmət edirdi.

Gizir Zahidov Elməddin Kapitan Amid Heydərov haqqında belə deyir:

"Artıq biz Amidlə 6-7 il idi ki, dost idik. 2014-cü ildə yollarımız ayrılsa da dostluğumuzu həmişə qoruyub saxladıq. Məzuniyyətlərimizi eyni vaxtlarda götürüb istirahətə gedərdik. Bir artıq yenidən Ağcəbədidə işlədiyimiz zaman mən gizir rütbəsi almışdım. Amidlə heç vaxt aramızda sizli-bizli münasibət olmayıb. Həmişə yaxın dost kimi səmimi olmuşuq. O qədər xeyirxah bir insan idi ki, Ramazan bayramında özü oruc tuta bilməsə də hərbi hissədə oruc tutanlar üçün bayram süfrələri açdırardı. Sədəqəni də həmişə mənə verərdi,deyərdi ki, Elməddin qardaş, bunu da kasıblara ver məndən olsun. Biz orada xidmət edən vaxt kasıb ailə vardı. Həmişə mən də, Amid də sədəqəni o ailəyə verərdik. Amid həmişə kasıblara əl tutar, yaşlılara dayaq olardı".

Qardaşı Asim kapitan qardaşını belə xatırlayır:

"Amid məndən böyük olduğu üçün ömrü boyu ona hörmətim sonsuz olub. Amid özü hər zaman hər bir mövzuda mənim yanımda olub, yıxılan zaman əlimdən tutub. Səhvlə-

rimi heç vaxt üzümə vurmazdı. Həmişə onları düzəltməkdə mənə kömək edərdi. İnsan ac qala bilər, susuz qala bilər, amma ümidsiz bir gün belə yaşaya bilməz. Amid həmişə mənim ümid mənbəyim olub. Amidin Lələtəpə yüksəkliyini azad olunmasında göstərdiyi şücaətdən sonra məndə də torpaqlarımızın işğaldan azad olacağına inamım yarandı. Söhbətlərimiz zamanı Amid həmişə deyərdi ki, Lələtəpə yüksəkliyinə qalxan ilk tankçı olduğu kimi Şuşaya da ilk daxil olan tankçı olacaq. Ən böyük arzularından biri də Şuşanı azad görmək idi. Məzuniyyətə gələndə isə həmişə Həzi Aslanov haqqında olan "Sizi dünyalar qədər sevirdim" filminə baxırdıq. O, da bir gün general olacağını deyərdi. Mən bir neçə dəfə onun işlədiyi hərbi hissələrdə olmuşam. Nə vaxt gedərdimsə dostları eşidərdilərsə Amidin qardaşı gəlib, məni yüksək səviyyədə qarşılayardılar. Ağcəbədidə ən yaxın dostları, Həsənov Elvin, Əliyev Atabəy, Qurbanov Vüqar, Nəcəfov Nahid və Zahidov Elməddin idi. Onların yanında Amidin hörməti sonsuz idi. Hələ bir dəfə getdiyi zaman axşamüstü futbbol oynadıq".

Qonşusu operator Altay Babayev Kapitan Amid Heydərovu belə xaırlayır:

"Amid nə vaxt Lerikə gələrdisə qonşularını yaddan çıxartmazdı. Həmişə gəlib mənimlə görüşərdi. Maşınla da olsaydı yolda saxlayıb, düşüb mənimlə görüşərdi. Hal-əhval tutardı. Bir dəfə yoldan rayonun mərkəzinə gedirdim. Amidin maşında adam var idi, adamları evə apardıqdan sonra yenidən gəlib rayonda mənimlə görüşdü və dedi ki, "Gəldim səni də görüm. Yoxsa deyərsən Amid məni gördü, amma

salam vermədi". Belə insani keyfiyyətlərinə görə biz onun xətrini çox istəyirdik".

2018-ci ildə Amid Qurban Bayramı münasibətilə "Döyüş hazırlığında, qoşun xidmətinin təşkilində əldə etdiyi nailiyyətlərə və nizam-intizamı yüksək səviyyədə saxladığına görə" medalı ilə təltif olunmuşdur. 26 İyun Azərbaycan Ordusunun 100 illiyi yubileyi və Qüsursuz xidmətə görə 3-cü dərəcəli medalı ilə təltif olunmuşdur.

Ailəsinin sözlərinə görə televiziyada prezident İlham Əliyev danışarkən Amid demişdir:

"Azərbaycan xalqı xoşbəxtdir ki, onun belə prezidenti var. Ali Baş Komandan İlham Əliyevin cəbhə xəttində əsgərlərlə görüşməsi bizdə böyük ruh yüksəkliyi yaradıb. Hər zaman döyüşə hazırıq. Ali Baş Komandanın əmrini gözləyirik. Nəyin bahasına olursa olsun torpaqlarımızı azad edəcəyik. Şəhidlərimizin qanı yerdə qalmayacaq".

Xidmətində həmişə uğurları ilə ordunun ön sıralarında yer alan zabitlərimizdən biri də Amid Heydərov idi. O, 2019-cu ildə hərbi hissənin yaranmasının 6-cı ildönümü münasibəti ilə "Döyüş və ictimai-siyasi hazırlqda nizam-intizamda fərqləndiyinə görə" fəxri fərman ilə təltif olunmuşdur.

Amid günün çox vaxtını işdə keçirsə də ailə və uşaqlarına da vaxt ayırırdı. Hələ 2019-cu ildə oğlunun 5 yaşını təntənəli şəkildə qeyd etmişdir. Belə bir gündə Amidin hərbi hissə komandiri də daxil olmaqla yanaşı, bir çox dostu onu yalnız qoymamışdılar. Amid qızı Şəmsin təhsili ilə daim maraqlanmışdır. Onun da hər uşaq kimi gələcəyini qurmaq üçün təhsilə ehtiyacı var idi.

Ehtiyatda olan baş əsgər Baxışlı İlkin komandirini belə xatırlayır:

“Amid Heydərovla ilk tanışlığımız 2019-cu il aprel ayına, yəni mənim əsgərlik dövrümə təsadüf edir. Bütün taborlarda olduğu kimi ilk bizi qarşılayan da o oldu. Hansı ki, o zaman kapitan rütbəsində idi və bizim taborun qərargah rəisi idi. İlk öncə ad-soyadlarımızı soruşdu, sonra təhsilimizi. Ali təhsilli olduğumu öyrənəndə daha çox hörmət etməyə başlamışdı. Zaman, vaxt keçdikcə rəsmə, sənətə hörmətinin çox olduğunu bildim, çünki xatirələrimiz çoxdur. Amidi sözlərlə,cümlələrlə bitirmək olmaz. Ən yada qalan bir gün xidmətdə idim. Komandirin bir əsgəri var idi. Əbilov Ramin gəldi ki, rəis səni çağırır. Məzuniyyətimizə az qalmışdı. Artıq altı aya yaxın idi ki, xidmət edirdim. Getdim yanına, dedi ki, Baxışlı, səndən bir şey istəyəcəm. Mənim portretimi çək. Mən rəisə alınmayacağını, burada o şəraitin olmadığını dedim. Komandir dedi ki, “yox” bilmirəm. Nə istəyirsən alım, bir portretimi işlə. Axır o razılığa gəldik ki, məzuniyyətə gedəndə evdə işləyib gətirərəm. Portreti hazır edib gəldim. Məndən soruşdu ki, məndən nə istəyirsən? Dedim ki, texnikanın qarşısında şəkil çəkdirək. Amma qismət olmadı. O, taborda çox böyük nüfuza malik idi. Mən deyərdim ki, yeri gələndə əsgər komandir münasibətini saxlayırdı. Xidmət başında çox ciddi idi. Xidməti ki, təhvil verdim, elə bil sənin ailəndən biridir.

Bir gün də məni çağırdı. Bizdə belə bir xidmət var idi. Parkda xidmətdə qalmaq lazım idi. Məni çağırdı, dedi ki, yoxlama gələcək. Yuxarıdan vəzifə borcu var. Verəcəm, əz-

bərlə, bu gün sən çıxacaqsan. Öyrəndim, çıxdım, məruzə etdim. Xidmət yaxşı keçdi. Məni çağırdı, "Halal olsun, əsgər" –dedi. O, qədər xatirlərimiz var ki. Formanı çox sevirdi, xüsusi sevgi var idi onda formaya qarşı. Biz onun formasının bir dəfə olsun çirkli, ütüsüz görmədik".

Dayısı oğlu Samir Kapitan Amid Heydərovu belə xatırlayır:

"Amid hər daim xüsusi ilə də Aprel döyüşlərindən sonra həmişə bizlə görüşəndə deyərdi ki, "gün o gün olsun sizə zəng edəcəm ki, Qarabağdayam! Şuşadayam" daha müharibə yoxdu". 2019-cu ilin iynunda Amid mənə zəng edib təbrik etmişdi. Universitetə girəndə yüksək bal topladığıma görə mənə uğurlar arzu etmişdi. Avqust ayının 9-u isə Amid uşaqlıqdan xəyalını qurduğu Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ev muzeyində olmuşdu. Orada olarkən xatirə dəftərində bu sözləri qeyd etmişdi:

"Bu gün 09 avqust 2019-cu il. Mən kapitan Heydərov Amid Rəbbil oğlu. Tankçıyam. 11 ildir ki, bu şərəfli peşənin adını layiqincə daşıyıram. Təkcə peşənin yox, hətta Azərbaycanın igid oğlunun davamçısı kimi bu adı daşımaqdan qürur hissi keçirirəm. Ən böyük arzum bu ev muzeyini ziyarət edib, Azərbaycanın igid oğlunu daha yaxından tanımaq, onun döyüş və həyat yolunu daha da dərindən öyrənmək idi. Nəhayət ki, bu gün mənə qismət oldu. Mən bütün tankçıların xidmət müddətində öz yolunu bu muzeydən salmasına və bir saat belə olsa burada olmalarını arzulayıram. Bu muzeyə rəhbərlik edən hər kəsə və bu eksponatları, qiy-

mətli tarixi sənədləri və əşyaları qoruyub saxlayanlara minnətdarlığımı bildirirəm.

Tankçı Kapitan Heydərov Amid (imza) 09.08.19 16:20".

Və həmin gün axşam Lerikdə qonaqlıq idi. Amid də orada idi, məni təbrik etdi, uğurlar arzuladı, zarafatla dedi: daha bu camaatın dilindən qurtardın. Onlar bildi ki, sən universitetə girdin, daha sənin universiteti bitirib, bitirməməyin onlara maraqlı deyil".

Artıq 2019-cu ilin axırlarına az qalmışdı. Amid kapitan olduğu dönəmdə çox uğurlar qazanmış və dostları ilə yüksək səviyyəli işlərə imza atmışdı. 2020-ci ilin may ayında Azərbaycanın gənc, amma savadlı zabitinə nümunəvi xidmətinə görə vaxtından əvvəl mayor rütbəsi verilmişdi. Sonra isə Amidə komandalıq tərəfindən əmr gəlmişdi. Amid hər işdə olduğu kimi yenə də ailəsinin razılığını və dostlarından məsləhət almadan hərəkət etmək istəmirdi. Rəbbil kişi oğlunu xatırlayaraq belə deyir:

"Amid mənə zəng vurmuşdu ki, "ata, məni hərbi hissəyə komandir göndərirlər. Gedim, ya yox?" Mən ona dedim ki, sənin hələ təcrübən azdı. Bir müddət sonra hərbi hissə komandiri olarsan, o da mənimlə razılaşdı. Bu telefon danışığımızın üstündən bir həftə keçdi. Amid yenə mənə zəng vurdu ki, "ata, General-Mayor Mais Bərxudarov tərəfindən əmr gəlib". Mən də dedim ki, əgər əmr general tərəfindən gəlibsə getməlisən. Yəqin ki, sənin nümunəvi xidmətinə görə səni seçiblər. Mən də onu təbrik etdim. Ailə üzvləri də onu təbrik etdi. Hamımız onunla fəxr edirdik".

Gizir Zahidov Elməddin Mayor Amid Heydərovu belə xatırlayır:

"Amid yeni rütbəsini aldıqdan sonra heç kim onun başqa hərbi hissəyə getməsini istəmirdi. Amidin rütbəsini təqdim etmə müdəti 5-10 dəqiqə çəkdi. Həmin bu müddət ərzində alqışlar dayanmırdı. Amma hamı bir tərəfdən sevinir, bir tərəfdən də kədərlənirdi. Amid hərbi hissə komandiri göndəriləndən sonra dostlarını unutmurdu. Hər zaman görüşlərimiz olub. Hətta Amidin bir qırmızı "Mersedes 190"-ı vardı, onu mənimlə birlikdə Bakıda almışdıq. Bu qırmızı maşın onun uşaqlıq xəyalı idi. Digər dostları və qohumları da bir-bir zəng vurur Amidi təbrik edirdi. Ona qalib ordunun generalı olmağı arzu edirdilər".

Polkovnik-Leytenant Vüqar Qurbanov dostunu belə xatırlayır:

"Amid həm savadlı, həm də tələbkar, məsuliyyətli bir zabit idi. Hər işdə də məndən məsləhət alırdı. Axırıncı dəfə hərbi hissə komandiri göndərildiyi zaman da mənə zəng vurub məsləhət aldı ki,  gedim, yoxsa yox? Mən də ona dedim ki, sən o vəzifəyə layiqsən ki, səni göndərirlər, get. Amid bir dost kimi, yoldaş kimi həmişə dostlarının yanında idi. Bir az qapalı insan idi. Hər hadisəni tez büruzə verməzdi. Bir dəfə Bakıya gəlmişdi, hansısa bir iş üçün bizə qonaq gəldi. Həmişə köhnə mahnılara qulaq asardı. Ən çox da muğama. Bizə gəldiyi zaman Mirələm Mirələmovun bir mahnııs var idi, məşhur. Ona qulaq asardı. Geyimi də çox sadə və klassik tərzdə idi. Ucu şiş ayaqqabılar, kostyum-köynək şalvar. Mən arada zarafatla ona deyərdim ki, Amid, bir az müasirləş. Ge-

yim tərzini dəyiş. O, isə mənə baxıb sakitcə gülərdi".

Kapitan Həsənov İbrahim Amidi belə xatırlayır:

"Amidlə biz xidmətdən sonra da dost idik. Demək olar ki, qardaş kimi olmuşuq. Axırıncı dəfə mənə təcili sənəd lazım idi. Onu tapıb göndərmişdi. Nə zaman bir iş olsa idi, zəng edərdimsə heç vaxt yox deməzdi".

Sinif yoldaşı Ruslan Məmmədov ən yaxın dostunu belə xatırlayır:

"Amid mayor rütbəsini aldıqdan sonra Lerikə gəlmişdi. Onda onu təbrik etdim. Onda mənə dedi: "Ruslan, qardaşım az qalıb, tezliklə qardaşın tankı Şuşaya sürəcək". Çox vaxt rayonda olmasa da mən bir qardaş kimi daima onunla fəxr edirdim". Bir dəfə rayonun mərkəzində gəzən zaman bayrağı göstərərək dedi:

"Bu müqəddəs bayrağın dalğalandığı yerdə xidmət etməyimlə fəxr edirəm".

Qonşusu operator Altay Babayev Amidi xatırlayaraq belə deyir:

"Mən video-operator işləyirdim deyə nə vaxt xeyir iş olardısa məni çağırardı. 26 iyun 2020-ci ildə qardaşının nişanında məni çağırmışdı. Mən orda ondan soruşdum ki, Amid, hələ də kapitansan? Dedi ki, "yox, mayor rütbəsi almışam. General olmaq üçün çalışıram". Dedim ki, general ol, gələcəm sənin yanına. "Səni gözləyəcəm" demişdi. Həmin gün həm də Silahlı Qüvvələr günü idi deyə onu təbrik etdim. Orada, nişan əsnasında Amid ordu haqqında çıxış edərkən bu sözləri demişdir: "Bu gün həm də ikinci dəfə tarixə yazılır, bu gün 26 İyun ordunun yaranması günüdür. O,

ordu ki, onun arxasında xalq durur, o xalqın nümayəndələri burada əyləşiblər. Allah hamısına can sağlığı versin".

Amid may ayında mayor rütbəsi aldıqdan sonra Füzuli rayonu Əhmədbəyli kəndində hərbi hissə komandiri təyin olunmuşdur. Qısa müddətdə hərbi hissədə böyük dəyişikliklər edən Amid bugünkü bacarağının ona keçmiş günlərdən miras qaldığını bilirdi.

Mayor Quliyev Şəhriyar hərbi hissə komandiri Amid Heydərovu belə xatırlayır:

"Biz Amidlə akademiyadan sonra ilk dəfə idi ki, bir yerdə xidmət edirdik. Füzuli rayonunda Amid hərbi hissə komandiri, mən isə qərargah rəisi idim. İlk günlərdən çox gözəl planlar qururdurq. Məqsədimiz güclü tank hərbi hissəsi yaratmaq idi. Qısa vaxt ərzində bir çox dəyişikliklər elədik".

Qazi Taleh Camalov qəhrəman komandiri xatırlayaraq belə deyir:

"Amid Heydərovu mən qərargah rəisi olan vaxtından tanıyırdım. Həmin vaxt mən xidmətə başlayanda məni Amid və kürəkənim gizir Zahidov Elməddin qarşıladı. Amidlə aramızda xidmət bitdikdən sonra komandir və əsgər münasibəti olmayıb. Sonra biz yeməkxanaya getdik, orada mənə dedi ki, bizdə belədir. Xidmət xidmətdir. Biz burada bir yerdə işləyiriksə dostluğumuzu, qardaşlığımızı göstərməliyik".

Baş leytenant qazi Əli Əlisoy komandiri belə xatırlayır:

"2020-ci ilin may ayında Füzulidə N saylı hərbi hissəyə bölük komandiri kimi yollandım. Mən gəldikdən sonra yeni hərbi hissə komandiri gəldi. Yeni hərbi hissə komandiri Mayor Amid Heydərov idi. Aprel döyüşlərində vaxtından əvvəl

kapitan rütbəsi almışdı deyə vaxtından əvvəl də hərbi hissə komandiri təyin olunmuşdu. Gələn kimi hərbi hissədə 180 dərəcə dəyişiklik oldu. Binaların təmiri, ağacların əkilməsi və digər işlər nəticəsində hərbi hissə səliqəli bir hal aldı. Komandirin gəlməsi ilə hərbi-hissə sanki çiçəkləndi. Eyni zamanda, savadlı zabit kimi xidmətinə görə hərbi hissə korpusunda daha çox sevildi. Özü şəxsən tankların təmir olunmasında iştirak edirdi. O gələnə kimi rabitə sistemi tam yaxşı şəkildə işləmirdi. Komandir bütün istəklərimizi dinləyir və problemlərimizi həll edirdi. Xidmətdən əlavə şəxsiyyətin şəxsi problemlərinin həll olunmasına kömək edirdi. İcazə istəyərdinsə adamı geri çevirməzdi.

Bir dəfə mən postdan gəldikdən sonra komandirə hərbi salam verdim, məruzə etdim. Komandir məndən soruşdu ki, Sən tankçı olmağınla fəxr etmirsən?

Mən dedim ki, bəs fəxr edirəm Cənab Mayor.

- Fəxr edirsənsə sinəndəki nişan niyə motoatıcı nişanıdır, tankçı nişanı deyil?

- Mənə bunu veriblər Cənab Mayor.

- Yox, əgər tankçısansa və tankçı olmağınla fəxr edirsənsə sinəndə də tankçı nişanı olmalıdır.

- Yaxşı Cənab Mayor.

Mən nişanı dəyişdirdən sonra yenidən gəldim cənab mayorun yanına. Mənə dedi ki, Əli, sən gələcəkdə savadlı, nümunəvi zabit olmaq istəyirsənsə belə kiçik nüanslara fikir verməlisən. Xidmətinlə, geyiminlə və tankınla seçilməlisən.

Komandir tankçı olmağıyla çox fəxr edirdi. O, tank

haqqında danışanda biz saatlarla onu maraqla dinləyərdik. Bir dəfə də mən postdan gəlirdim. Komandiri görmədim. Komandir hərbi hissədə çardaqda oturub, sənədləri qaydasına salırdı. Mən gələrkən komandiri görmədim, bir az gec oldu hərbi salam verməyim. Məni çağırdı. Dedim: “Bağışlayın cənab mayor. Görmədim sizi. O isə: “Əli, bu dediyin dügün deyil. Sabah sən də komandir olacaqsan. Belə hadisələrdə gərək diqqətli olasan” dedi. Mən dəfələrlə üzr istədikdən sonra komandir dedi ki, Əli, mən sənin xidmətini maraqlanmışam. Hər işi yolunda olan zabitlər sırasında sən də varsan. Səni kursa göndərəcəm. Mən komandirin bu sözündən sonra donub qalmışdım. O, bir komandir kimi yox, sanki böyük qardaş kimi idi.

Qazi İlkin Nuruzadə hərbi hissə komandirini xatırlayaraq belə deyir:

Mən xidmət vaxtı gizir olmuşam. Cənab mayordan çox ünsiyyətdə olmamışam. Nə vaxt gedib yaxınlaşsam demişəm cənab mayor, icazə verin bir-iki gün istirahət edim, gələ bilməyəcəm. Heç vaxt geri çevirməzdi. Üç-dörd dəfə yaxınlaşmışam. Söhbət edib, deyib-gülən, zarafatcıl və səmimi bir insan idi. Hətta cənab mayorun qırmızı “Mersedes 190”-ı vardı. O maşın diqqətimi cəlb etmişdi. Bir-iki dəfə maşın haqqında söhbət etmişdik”.

Qazi baş leytenant Babayev Şakir komandiri haqqında belə danışır:

“Mənim ilk olaraq qərargah rəisim, sonra komandirim, hər şeydən əvvəl böyük qardaş kimi arxa-dayaq kimi gördüyüm mayor Amid Heydərov idi. Biz komandirlə Ağcəbədidə

N saylı hərbi-hissədə tanış olmuşuq. Mən onda tağım komandiri, komandir isə qərargah rəisi vəzifəsində idi. Amid Heydərov bizə başqa bir hərbi-hissədən gəldiyi gündən aramızda xidməti bir isti münasibət yaranmışdı. Həmişə komandir kimi məni dəstəkləyirdi, arxamda dururdu. Çox savadlı, soyuqqanlı bir insan idi. Həmişə bizim kimi orduya yeni ayaq basmış zabitlərin yetişməsi üçün əlindən gələni artıqlamasıyla edirdi.

Artıq 30 illik Vətən həsrətindən sonra Amidin gözlədiyi əmr gəlmişdi. Son zamanlar təlimlərin çoxluğu artıq zabitlər arasında da bu xəbərin duyulmasına gətirib çıxartmışdı.

Qazi Əli Əlisoy təlim həftəsini belə xatırlayır:

"Sentyabr ayının 26-sı düşmənin təxribat xarakterli hücumu olduğu barədə bizə məlumat gəldi və biz bölüyümüzlə daşındıq "Tülkü dərəsi" deyilən yerə. Bundan sonra təlimlərə başladıq və başa düşdük ki, təlim, hazırlıq keçən həftələrdə keçdiyimiz təlimlər kimi deyil. Hərbi hissə komandirimiz təlimlərdə hər tankın içinə özünün girib yoxlamağı və tam ciddi şəkildə nəzarətdən biz başa düşdük ki, artıq müharibəyə az qalıb. Sonra komandir dedi ki, zabitləri və əsgərləri göndərin, gedib ailələri ilə görüşsünlər. Biz artıq özümüz də bilirdik ki, müharibədə hər şey ola bilər. Döyüşdən qabaq komandir bizi öz ətrafına topladı. Zabitlərlə iclas etdi və məsələnin ciddiyyətini bizə başa saldı. Sonra dedi ki, gəlin hallalaşaq, dünyanın işini bilmək olmaz. Biz bilirdik ki, döyüşə gedirik. Şəhid də ola bilərik, qazi də. Daha çox şəhid olmaq arzusu ilə gedirdik, çünki hamımız sevinirdik ki, döyüşə gedirik. 30 illik Vətən həsrətinə son

qoyacağıq!

Amid atasına zəng vurmağı da unutmamışdı. Hücum başlamamışdan bir neçə saat əvvəl atası Rəbbil kişinin telefonuna zəng etdi: “Ola bilsin bir müddət sizinlə danışa bilməyəcəm. Biz azadlıq müharibəsinə başlayırıq. Narahat olmayın, çox çəkməz, biz görüşərik”, -deyə Amid atasını arxayınlaşdırmağa çalışır. Sonra da utana-utana gül balaları Şəmsi və Səidi soruşur. “Uşaqlara yaxşı baxın, ata” deyib xudahafizləşir.

Qəhrəman komandirin atası sanki oğlunu xəyallarında axtarırmış kimi, baxışlarını bir nöqtəyə zilləmiş Rəbbil kişi deyir: “Amid mənə zəng vurduğu zaman yenə həmişəki kimi, ancaq özünü qoru oğlum, özündən muğayat ol” deyə bildim. O, da həmişəki kimi danışmırdı. Sanki danışığında sevinc hissi duyulurmuş kimi dedi: Siz özünüzdən muğayat olun ata. Uşaqlara yaxşı baxın, biz gərək torpaqlarımızı azad edək, şəhidlərimizin qanı yerdə qalmayacaq. Amidin bu sözlərindən sora yenə bizə zəng edəcəyindən əmin idim. Bilirdim ki, Amid bizi nigaran qoymayacaq”.

Bu telefon danışığından bir neçə saat sonra sentyabrın 27-də sübhçağı Qarabağda yeri-göyü lərzəyə gətirən yüzlərlə top və minaatan aramsız atəş səsləri Azərbaycanın öz suverenliyi və ərazi bütövlüyünü bərpa etmək üçün Vətən müharibəsinə başlamasını bəyan edir. Artilleriyanın aramsız atəş hazırlığından sonra döyüşə polad maşınlar-tanklar daxil olur. Onların ön sırasında 2016-cı il aprel döyüşlərinin qəhrəmanlarından biri müqədəs döyüşü səbrsizliklə gözləyən tank taborunun komandiri mayor Amid Heydərov

gedirdi. Qazi Əli Əlisoy həmin anları belə xatırlayır:

"Tanklar döyüş meydanına gətiriləndə komandir gəldi və deid ki, hər şeyi bilirsiniz. Siz buradan yaracaqsınız ön xətti, bu heyətlər sizə əmanətdi. Bu səhnə mənə tanışdır. Aprel döyüşlərindən. Komandir özü Lələtəpənin qarşı tərəfindən hücuma başlayacaqdı. Bizimlə sağollaşdıqdan sonra heyəti ilə bizdən uzaqlaşdı".

Amid 27-si cəbhənin ən ağır hissəsində Füzuli, Cəbrayıl rayonları istiqamətində döyüşlərə başlayır. Döyüş təcrübəsi ilə yanaşı, cəsarəti və mərdliyi ilə taborda əsgərdən zabitə hamının sevimlisi olan Amidin komandiri olduğu 300 nömrəli tank düşmənin uzun illər qurduğu istehkamlardan açılan atəş nöqtələrini susdurmaqla irəliləyirdi. O tank ki, üzərində müəllifi Amid olan "Son mənzilimiz Şuşa!" şüarı həkk olunmuşdu. Baş leytenant Əli Əlisoy komandirinin şücaətini xatırlayaraq deyir:

"Biz başa düşürdük ki, üzərimizə hansı vəzifəni götürmüşük. Komandir bunu tam aydın şəkildə bizə izah etmişdi. Bizi qarşıda çox ağır döyüşlər gözləyirdi. Düşmənin bir neçə ağır müdafiə xəttini keçdik. Komandirimizlə iki minalanmış müdafiəni xəttini də keçdik. Komandir heç vaxt tabeçiliyndə olanların arxasından getməzdi. Onun olduğu tank birinci döyüşə girirdi. Həmişə deyərdi: "Mən "İrəli" yox, "Ardımca!" komandası verməliyəm ki, siz də cəsarətlə gələsiniz". Sağında, solunda partlayan top mərmilərinə məhəl qoymadan yüksək döyüş qabiliyyəti ilə manevr edən mayorun bu cəsarətli yürüşü düşməni öz istehkamlarını qoyub-qaçmağa və arxadan gələn tankların irəliləməsinə əlverişli şərait ya-

radırdı. Qazi Taleh Camalov komandirinin şücaətini xatırlayaraq deyir:

"27 Sentyabr müharibə başladı. Başlayan kimi Amid Heydərov hərbi-hissə komandiri ola-ola ön xətti yaran ilk tankçılardan idi. Döyüş vaxtı irəli gedə-gedə rabitə ilə deyirdi: "Ardımca pələnglərim, ardımca! Biz gərək Xocalını və şəhidlərimizin qisasını alaq!"

Döyüşlərin ikinci günü, sentyabrın 28-də Amid düşmən istehkamlarını məhv etməyin Azərbaycan Ordusunun bu müharibədə çox vacib olan ilk hücumlarının uğur qazanmasının bütün gələcək döyüşlər üçün necə mühüm əhəmiyyət kəsb etdiyini yaxşı başa düşürdü. Bu dəqiqələrdə onu yalnız düşmənin canlı qüvvəsini məhv etmək, onların beton istehkamlarını dağıtmaq, döyüşçülərimizin az itkilərlə irəliləməsini təmin etmək düşündürürdü.

Komandirin göstərişi ilə sürətlə manevr edərək birbaşa top atəşinə tuş gəlməkdən yayınan Amidin tankı ard-arda atəş açmaqla düşmənin diqqətini özündən sonra gələn hərbi zirehli maşınlardan yayındıra bilirdi. Bəzən düşmənin tərəfinin atdığı mərmiləri onun tankının lap yaxınlığında partlayırdı, ancaq komandirin tankı buna məhəl qoymadan irəli gedir və işğalçıların üzbəüz atəş nöqtələrinə zərbələr endirir.

2020-ci ilin 28 sentyabrında Vətən müharibəsinin ikinci günündə rəşadətli Azərbaycan ordusu tərəfindən 8 kənd işğaldan azad olunmuşdur. Bu mənfur düşmənin möhkənləndirdiyi müdafiə xəttinin yarılması demək idi. Xəritəyə nəzər saldıqdan aydın olur ki, həmin 8 kənddən ən sonda

yerləşən və Cəbrayıl istiqamətində yolu açan Cəbrayıl rayonunun Nuzigar kəndidir. Bu kənd həmin rayonun işğaldan azad olunan sayca 4-cü kəndidir. Döyüşdə taborun iki tankı vurulur. Bu komandir Amidi daha da qəzəbləndirir. Amid and içir ki, onun tanklarını vuran atəş nöqtələrini nəyin bahasına olur-olsun susduracaq. Düşmənin 30 il ərzində qurduğu müdafiəsini yararaq xeyli irəli gedir. Arsenalında olan mərmilərin 40-nı da düşmənin üzərinə yağdırır. Düşmənin od-saçan bir tankını məhv edir. Sursatı qurtardığı üçün geri qayıtmaq əmri verir. Amansız od saçan Azərbaycan ordusunun tankının susduğunu görən düşmən dərhal onu hədəfə alır. İkinci mərmidən sonra tank zədələnsədə də hərəkətini davam etdirir. Üçüncü zirehdən mərmi ilə atəşdən sonra Mayor Amid Heydərovun tankı alovlanıb meydanda qalır. Bütün heyət Vətən yolunda şəhid olur...

Rəbbil kişi dolmuş gözləri və tutulmuş nitqi ilə şəhid oğlunu belə xatırlayır:

“Müharibə başladıqdan sonra Amiddən bir xəbər gəlmədiyi üçün çox narahat idim. 29 sentyabr mənə zəng gəldi. Onun  döyüş yoldaşı dedi: “Dayı, mən səndən heç nə gizlətməyəcəm. Amid şəhid oldu. Amidi itirdik..”. Mən həmin an yolda olmuşam, halım pişləşib. Məni gətirdilər evə, sonra xəbər gəldi ki, sağdı. Onda bütün onu tanıyanlar və Lerik camaatı mənə gözaydınlığı verdi. Sonra birdən-birə bütün ümidlərmiz söndü. Amid şəhid olmuşdu. Bu xəbərdən sonra artıq deməyə söz tapa bilmirdim. Sanki dünya susmuş, zaman durmuş, hər yer matəmə qərq olmuşdu mənim üçün.

Qardaşı Asim qardaşını, dostunu itirdiyi o anları xatırla-

yaraq belə deyir:

"Müharibə başlayandan sonra Amid ilə əlaqə saxlamaq mümkün olmadı. Mən dostları ilə əlaqə saxlayanda da deyirdilər ki, çox qabaqdadır. Görə bilmirik, yaxşıdır. Mən inanmadım, Beyləqana getdim. Orada polkovnik leytenant Vüqar Qurbanovla görüşdüm. Orada mənə dedi ki, Amid şəhid olub. Həmin an orada Vüqar olmasaydı bəlkə mənim də ürəyim dayanmışdı, yıxılmışdım. Oradan getdik, nəşini döyüş meydanından götürdük. Füzuli məscidinə gətirdik. Dinimizin qaydaları üzrə tabuta qoyuldu. Ordan da Lerik rayonuna gətirdik. Lerikə gəlməyimiz, dəfni yadımda deyil. Artıq mən özümdə deyildim. Gələcəyimi, arzularımı, dayağımı itirmişdim".

Habil dayı Amidin şəhid olmasını belə xatırlayır:

"Amid hərbi hissə komandiri getdiyi zaman mən zəng vurub onu təbrik etdim. Ona torpaqlarımız azad olduqdan sonra qalib ordunun tank komandiri olmağı arzu etdim. Sentyabrın əvvəli mənə zəng vurdu, dedi ki, dayı, gəl görüşək. Həmin vaxt Amid bir az qəribə olmuşdu. Mən dedim ki, inşəAllah general olarsan. O da dedi ki, bəlkə öldüm, bəlkə bir də görüşə bilmədik, qismətdə nə varsa onu da görəcəyik.

27-si mən ona zəng vurdum, zəng çatmadı. Narahat oldum. 28 sentyabr saat 3-ün yarısı mənə xəbər çatdı ki, Amid şəhid olub. Sonra dostuma zəng vurdum, o da müharibədə idi. Soruşdum, mənə dedi ki, bilirdim. Sənə deməyə çəkinirdim. Sonra Asim, polkovnik leytenant Vüqar Qurbanov, mən getdik nəşini götürdük. O vaxta kimi ailəsi də boyun

almırdıq ki, Amid şəhid olub. Məni onun şəhid xəbəri çox pis sarsdı. Azərbaycan Amid kimi savadlı,intizamlı zabitini itirdi. Biz də Amid kimi mükkəmməl bir gənci...

Gizir Zahidov Elməddin dostu, qardaşı qədər yaxın olan Amid Heydərovu belə xatırlayır:

“27 Sentyabr qızğın döyüşlər başlayan vaxt, Amid Cəbrayıl istiqamətində, biz isə Füzuli istiqamətində vuruşurduq. 28 sentyabr döyüşlərin ikinci günü bizə xəbər gəldi ki, Amid şəhid olub. O qədər pis olduq ki, döyüşlərin davam etdiyi bir vaxtda bu xəbər bizdə ruh düşkünlüyü yaratdı. Amid bizim hərbi hissədə qərargah rəisi işlədiyi üçün bütün hərbi hissə onu tanıyırdı. Hamımız çox pis olduq. Bu acı və sarsıdıcı xəbərin üstündən bir gün keçdi, dedilər ki, Amid sağdı! Kəşfiyatçılar görüb, çox sevindik. Həmin anları söz ilə ifadə etmək olmurdu. Bütün hərbi hissə sevincdən ağlayırdı ki, Amid sağdı. Dedilər ki, yaralıdı, gətiriblər qospitala. Vəziyyəti ağırdı. Oranı ələk-vələk etdirdim, tapa bilmədilər. Mənə xəbər gəldi ki, Amid şəhid olub, sağ olmağı səhv məlumat imiş. O qədər pis oldum ki, demək olar ki, tam idarə etməni itirdim. Müharibədə ac-susuz qalmaq olar, amma ümidsiz yaşamaq olmaz. Belə bir vətənpərvər insan müharibə başlayanda məlum hadisə idi ki, irəli atılacaqdı. Amid düşmənin ön xəttinin o qədər dərinliklərinə getmişdi ki, onun tankı düşmənin minaatan batareyasının 5 metrliyində idi. Amidin yoxluğu bizim üçün çox çətindir. Valideynləri də zəng vururdu, deyirdim ki, ya yaxşıdı, ya da Cəbrayıl istiqamətindədir, görmürük. Akademiyadan bir dost var idi, mayor Abdullayev Orxan. O, zəng etdi, Rəbbil dayıya dedi ki,

“dayı, mən səndən heç nə gizlətməyəcəm, yalan da danışmayacam. Amid şəhid olub”. Həmin an o qədər pis oldum ki, bir atanın ürəyinin ağrısı məni sarsdı...”.

Baş əsgər Baxışlı İlkin qəhrəman komandirinin şəhid olma xəbərini xatırlayaraq belə deyir:

“Vətən onun üçün hər şey idi, o canını, qanını bizim üçün verdi və şəhid oldu. Şəhid olma xəbərini əsgər yoldaşım Səlimov Turaldan aldım. Döyüşün dördüncü günü – oktyabr ayının 1-i dedi. Az qaldı ürəyim dayandı, inanmadım. Öz-özümə düşündüm, ola bilməz. O qədər, savadlı insan, o qədər ağıllı hərbi biliyi olan insan necə ola bilər ki, şəhid olsun. Maşında idim, özümü güc-bəla aptekə çatdırdım. Dərman içdim, amma hələ də inana bilmirdim. O günə kimi dəfnindən video və şəkiləri gördüm. Mən həmin gün təkcə komandirimi yox, həm də qardaşımı itirmişdim.

Mayor Şəhriyar Quliyev əvəzolunmaz dostunu və qardaş kimi doğma xidmət yoldaşını xatırlayaraq belə deyir:

“27 sentyabr müharibə başlayan günün səhəri görüşüb, sağollaşdıq. O bir istiqamətdə, mən isə bir başqa istiqamətdə döyüşə girdik. Onun şəhid olduğunu eşidəndə inanmadım, çünki Amid həm özü, həm də heyəti çox güclü tankçılar idi. Fikirləşdim ki, yəqin yaralı olarlar, amma ölməzlər. Hərbi qospitalda dostum işləyir. Ona yığdım, dedim bütün qospitaldan soruşsun Amidi. Bir gün sonra dostum mənə zəng etdi. Ondan sonra çətin olsa da inanmaq istəməsəm də başa düşdüm ki, Amid şəhid olub. Döyüşün sonrakı günlərində Amidin və digər şəhidlərimizin adını çəkib şəxsi heyətə onların qisasını almaq üçün döyüşə girəcəm dedim. Girdim

döyüşə. Çox şükür olsun ki, nəticədə onların qisası alındı".

Mayor Əliyev Atabəy öz kursant, xidmət və eyni zamanda ürək dostunu xatırlayaraq belə deyir:

"26 sentyabr mən işdə idim. Həmin gün axşam saat 1-2-də mənə məlumat çatdı ki, müharibə başlayıb. Səhər sübh çağı tezdən durdum Amidə zəng vurdum. Amidə zəng çatmadı. Digər dostlarımdan müharibədə iştirak edənlər var idi. Onlarla danışdım, amma Amidə yenə zəng çatmırdı. Danışdığım uşaqlardan da soruşdum ki, bəs Amiddən nə xəbər, necədi? Danışmısınız? Dedilər ki, yox. Amiddən xəbərimiz yoxdur. Bir gün keçdikdən sonra soruşdum ki, bəs Amid necədir? Dedilər ki, bəs deyəsən Amidin tankını vurublar. Həmin gün çox kövrəldim. Evdən də Amidi soruşurdular. Deyirdim ki, yaxşıdı. Zəng çatmır, danışa bilmirik. Bizdə də Amidi çox istəyirdilər. Mən öz-özümə dedim ki, mən bunu nə vaxta kimi gizlədəcəm? Bacım danışanda ona demişdim ki, Amidlə danışa bilmirəm, deyəsən şəhid olub. Sonra valideynlərim bacımgilə qonaq gediblər. Müharibədən danışıblar, bacım səhvən ağzından qaçırıb ki, Amidlə danışmaq olmur. Deyəsən şəhid olub. Atam mənə zəng elədi ki, oğul, Amid şəhid olub. Mənə niyə demirsən? Biləndən sonra onlar Amidin dəfnində də iştirak elədilər. Mən də məzuniyyət götürdükdən sonra gedib qəbrini ziyarət etdim".

Qazi Taleh Camalov həmişə irəlidə gedən komandirini xatırlayaraq belə deyir:

"Komandir döyüş vaxtı bizdən çox irəli gedirdi. Bir müddət sonra aramızda rabitə də itdi. Biz artıq işğal altında olan əraziləri azad edə-edə irəli getdikdən sonra gördük

ki, Amid şəhid olub. Deyəndə ki, Amid şəhid olub ayaqlarım yerdən kəsildi. Müharibə vaxtı hər gün evlə əlaqə saxlayırdım. Evdən atam soruşdu ki, Amid balamız necədi?  Həmin an məni qəhər boğdu, dedim ki, Amid şəhid olub. O da çox pis oldu. Ümid edirdi ki, Amidlə danışar. Bizim üçün çox çətindir Amidi itirmək...".

Dayısı oğlu Samir əfsanəvi batalyon komandirini xatırlayaraq belə deyir:

"2020-ci ilin may ayında mən Amidə zəng etdim. Mayor rütbəsi aldığı üçün. Ona qalib ordunun generalı olmağı arzu etdim. Generallıq qismət olmadı, lakin Amidin şəhadətindnə sonra 9 dekabrda "Vətən müharibəsi qəhrəmanı" adı veriləndə ona zəng edib təbrik etmək istəsəm də bu artıq mümkün deyildi. Amid bizə Vətəni sevməyi, mərdliyi, cəsurluğu, ədaləti, dürüstlüyü öyrətdi".

Mayor Nahid Nəcəfov yaddaşında iz qoymuş şəhid dostunu belə xatırlayır:

Müharibə başlamazdan əvvəl Ağcəbədidə xidmət edirdi, sonra isə Füzuli rayonuna hərbi-hisə komandiri getmişdi. Həmin vaxtlar çox gözəl münasibətimiz var idi. Dostluğu heç vaxt unutmazdı, çox mərd oğlan idi. Müharibə başlayanda biz Füzuli istiqamətində vuruşurduq, Amid isə Cəbrayıl. O, şəhid olduqdan bir saat sonra xəbərim oldu. Heç inana bilmirdim, gözlərim hələ Amidin tankını axtarırdı. Artıq özümü topladıqdan sonra əmisinə zəng vurdum, dedim. Amma dəyişən bir hadisə yox idi. Müharibədən neçə vaxt keçməsinə baxmayaraq hələ də Amidin yoxluğuna inana bilmirəm".

Baş leytenant qazi Əli Əlisoy şəhid komandirini belə xatırlayır:

“Komandir döyüş zamanı həmişə öndə gedirdi. Rabitədə də deyirdi ki, “Ardımca igidlərim!”. Son rabitədə isə səs kəsilməyə başladı. Mərmisinin bitdiyini eşitdim. “Rabitə, dəstək verin! Mərmi yükləyin, mərmi! Sağdadı ora atın!”. Sonra səslər qarışdı, tamam rabitə idi. Komandirin şəhid olmasına inana bilmirdim, çünki komandir özü, tuşlayıcısı gizir Mehdiyev Paşa və sürücü mexaniki Elsəfa Əliyev çox güclü tankçılar idi”.

Baş leytenant qazi Babayev Şakir komandirinin şəhid xəbərini xatırlayaraq belə deyir:

“Mən komandirin şəhid xəbərini eşidəndə xəstəxanada idim. Bizim bir hərbi qulluqçumuz gəlib dedi ki, belə bir hadisə baş verib. Elə bildim ki, dünya başıma uçdu. Mən orada keçirtdiyim hisləri heç vaxt dilə gətirə bilmərəm. Bizim xidmətdən çox, bir yoldaş kimi, dost kimi hüquqlarımız var idi... Əmisi qızı gəldi həmin xəstəxanaya. Dedi ki, belə bir insan tanıyırsınız? Təsadüfən gəlib bizim palataya. Beə dondum, qaldım, heç nə deyə bilmədim. Bir az keçdi, dedim bəli tanıyıram. Mənim komandirimdi. Nəsə olub? Dedi ki, bizə belə bir şey deyilib. Hardan dəqiqləşdirə bilərik? Mən deyə bilmədim ki, şəhid olub... bir neçə dəfə gəldi, soruşdu, gördü pisləşirəm, gözüm dolur, özü başa düşdü. Məni sakitləşdirdi. Dedi ki, başa düşdüm, belə eləmə... Mən əlbəttə, bütün silahdaşlarım üçün pis olurdum, yuxu yata bilmirdim, amma mayor Amid Heydərovun xəbəri elə bil ki, özüynən məni apardı. Çox əsəb keçirtdim, stresə düşdüm. Artıq gec

idi. Nə Amid var idi, nə də ki, keçmişdə yaşanan xatirələr bir də yaşanacaqdı”.

Kapitan Həsənov İbrahim qəhrəman dostunu belə xatırlayır:

“Biz onunla xidmətdən əlavə qardaş kimi olmuşuq. 28 sentyabr biz cəbhə xəttinə tankların daşınmasında iştirak edirdik. O zaman mən Amidin şəhid olması xəbərini eşitdim. Həmin an mən nə edəcəyimi bilmədim. Bundan sonrakı həyatımı qardaşım qədər yaxın olan dostum olmadan təsəvvür edə bilmirdim. 29 sentyabr biz maşında olanda qərargah rəisimizə zəng gəldi və deyildi ki, Amid sağdı. Həmin anları sözlə ifadə etmək olmur, dilim tutulmuşdu. Mən özümdən asılı olmayaraq başladım ağlamağa. Onun sağ olduğunu eşitmək bir qardaşın sağ olduğunu eşitmək kimi idi. Həmin vaxt mən bərkdən və hıçqıra-hıçqıra ağladığım üçün tibb işçiləri gəldilər, elə bildilər ki, mənə nəsə olub. Sonra dedilər ki, yox səhv məlumatdı. O məni tamamilə sarsdı. Digər dostlarımın və xidmət yoldaşlarımın da şəhid olmağı ruhumu incitdi, amma Amid başqa idi. İndi isə Amidin şəkilləri ilə danışıram, amma nə səs var, nə də bir hərəkət. Bu isə mənim içimdə gizlənmiş keçmiş xatirələri üzə çıxarır”.

Xidmətə başladığı gündən Amidin qardaşı, sirdaşı və xidmət yoldaşı olan polkovnik-leytenant Vüqar Qurbanov dostunun şəhid olması xəbərini xatırlayaraq belə deyir:

“27 sentyabr bizə komanda gəldi. 28 sentyabr səhər çağı biz Daşburuna çatdıq. Orada tankları düşürtdük. Texnikaları maşınlara yükləyirdik. Bir sürücü var idi, tankçılardan söhbət açıldı. Mən soruşdum ki, bəs Amiddən nə xəbər?

Amid şəhid olub. Soka düşdüm, inanmadım, donub qaldım. Bilmədim nə edim. Həmin an bütün Amidlə olan xatirlərimiz yadıma düşdü. Sonra dedilər ki, Amid sağdı. Kəşfiyyatçılar görüb. O qədər sevindik ki, yanımda kapitan Həsənov İbrahim var idi. Amid onun bölük komandiri olub. Onun ağlamağı mənə çox pis təsir etdi. Sonra xəbər gəldi ki, səhv məlumatdır. Tamam ümidlərimiz puç oldu. Mən hər il yayda Amidgilə gedərdim. Bu dəfə gedəndə isə artıq Amid yox, məzarı var idi..."

Qonşusu Altay Babayev rayonun hər kəsə örnək olan gəncinin şəhid olma xəbərini xatırlayaraq deyir:

Müharibə başladıqdan sonra mən düşünürdüm ki, Amid necədir? Çünki Aprel döyüşlərindən onu tanıyırdım. Bilirdim ki, geridə durub əmr verən komandir deyil. 29 sentyabr mən onun şəhid olma xəbərini eşitdim. Çox pis oldum, son söhbətimizdə mənə general olacağını demişdi. Qismət olmadı, amma ürəyimizdə onun yeri generaldan da yüksəkdədi".

Amid düşmənin 30 il ərzində qurduğu müdafiə xəttinin dərinliklərinə getdiyindən nəşini bir neçə gündən sonra oktyabr ayının 3-ü götürmək mümkün olub. Amidin nəşi doğulub, boya-başa çatdığı Lerik rayonuna gətirilərək torpağa tapşırılmışdı. Rayonumuzun digər şəhidləri kimi Amid də böyük izdihamla qarşılanmışdı. Həmin gün təkcə Lerik rayonu yox, Amidi tanıyan hər kəs onun üçün yas saxlayırdı. Bu zaman dostları onu itirdikləri üçün kədərlənsələr də, eyni zamanda onunla fəxr edirdilər. Aprel döyüşlərində olduğu kimi 44 günlük Vətən Müharibəsində də Amidin

şücaəti Ali Baş Komandan İlham Əliyev cənablarının diqqətindən yayınmamışdı. Ölümündən sonra Amid Heydərova 9 dekabr 2020-ci il tarixində ən ali dərəcəli “Vətən müharibəsi qəhrəmanı”, 15 dekabr 2020-ci il tarixində “Vətən uğrunda”, 24 dekabr 2020-ci il tarixində “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur. Dostları da onun xatirəsini əbədiləşdirmək üçün əllərindən gələni etməyə çalışmışdılar.

Lerik milli qəhrəmanı Rövşən Abdullayev adına mədəniyyət mərkəzində dostu Ruslan Məmədovun təşəbbüsü ilə yaradılmış şəhidlər güşəsindən Amidin şəkli də yer almışdır. Həm xidmət yoldaşı, həm dostu mayor Şəhriyar Quliyevin sözlərinə görə Amid Şuşanı görmək istəyirmiş. Onun üçün də biz Şuşada posta onun adını vermişik. Bakıda yaşayan qohumları Amidin xatirəsini əbədiləşdirmək üçün Xəzər rayonu Binə qəsəbəsində Amidin adına bulaq açmışdır. Ailəsinin təşəbbüsü ilə Lerik rayonunda qəhrəmanımızın adına Amid parkı açılmışdır. Qəhrəmanımızın adına sənədli film çəkilmiş, meyxana ustası Valeh Lerikli “Komandir” mahnısını yazmışdır.

Qəhrəmanımızdan bizə iki gül balası əmanət qalmışdır. Səid və Şəms Heydərli. Onlar da ataları kimi vətənpərvər ruhda böyüyür.

# AMİDİN SİLAHDAŞLARI



**Mehdiyev Paşa Ehtibar oğlu** 1978-ci ilnoyabrın 24-də Füzuli rayonunun Dövlətyarlı kəndində anadan olub. Mehdiyev Paşa 2016-cı ilin 2-5 aprelində baş verən Aprel döyüşlərində savaşıb. Aprel döyüşləri zamanı fərqləndiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 20 aprel 2016-cı il tarixli Sərəncamına əsasən "İgidliyə görə" medalı ilə təltif edilib. Azərbaycan Ordusunun Baş Giziri olan Paşa Mehdiyev 2020-ci il 27 sentyabrda Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın işğaldan azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Mehdiyev Paşa oktyabrın 7-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Mehdiyev Paşa ölümündən sonra "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunub.

Təltifləri:

26.06.2013 – "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı

26.06.2015 – "Qüsursuz xidmətdə görə" 3-cü dərəcəli medalı

20.04.2016 – "İgidliyə görə" medalı

26.06.2018 – "Azərbaycan Ordusunun 100 illiyi" yubiley medalı

15.12.2020 – "Vətən uğrunda" medalı (ölümündən sonra)

24.12.2020 – "Cəbrayılın azad olunmasına görə" medalı (ölümündən sonra)

Qeyd edək ki, qəhrəmanımız döyüşlərdə Mayor Amid Heydərovun heyətində tuşlayıcı vəzifəsini yerinə yetirmişdir.



**Əliyev Elsəfa Səməd oğlu** 1978-ci il noyabrın 10-daFüzuli rayonunun II Mahmudlu kəndində anadan olub. Azərbaycan Ordusunun Baş Əsgəri olan Elsəfa Əliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycan ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Elsəfa Əliyev sentyabrın 27-də Cəbrayıl döyüşləri zamanı şəhid olub. Füzuli rayonunun II Mahmudlu kəndində dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunun şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Elsəfa Əliyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi. Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliye-

vin 24.12.2020-ci il tarixli Sərəncamına əsasən Elsəfa Əliyev ölümündən sonra “Cəbrayılın azad olunmasına görə” medalı ilə təltif edildi.

Təltifləri:

26.06.2008 – “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi” yubiley medalı

26.06.2015 – “Qüsursuz xidmətə görə” – 3-cü dərəcəli medalı

26.06.2018 – “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalı

26.06.2020 – “Qüsursuz xidmətə görə” 2-ci dərəcəli medalı

15.12.2020 – “Vətən uğrunda” medalı (ölümündən sonra)

24.12.2020 _ “Cəbrayılın azad olunmasına görə” medalı (ölümündən sonra)

Qeyd edək ki, qəhrəmanımız döyüşlərdə Mayor Amid Heydərovun heyətində sürücü-müxanik vəzifəsini yerinə yetirmişdir.



**Rəhmətov Əbülfəz Hüseynverdi oğlu** 3 iyul 1989-cu ildə Lerik rayonunun Ambu kəndində anadan olmuşdur. O, 2006-cı ildə Lerik rayonunun Kitabəli Həmidov adına Ambu kənd orta məktəbini müvəfəqiyyətlə bitirərək, həmin ildə də Heydər Əliyev adına Ali Hərbi məktəbinə qəbul olmuşdur. 2010-cu ildən başlayaraq hərbi xidmətini davam etmişdir. Kapitan Əbülfəz Rəhmətov müxtəlif hərbi hissələrdə tağım komandiri vəzifəsindən başlamış, tabor komandiri vəzifəsinə qədər yüksəlmiş və peşəkar, təcrübəli zabit kimi Azərbaycan Ordusunda xidmət etmişdir. Hərbi xidməti müddətində kapitan Əbülfəz Rəhmətov Dördgünlük müharibədə iştirak etmişdir. Həmçinin, 2020-ci ilin Tovuz döyüşlərində general-mayor Polad Həşimov ilə bir sırada döyüşmüşdür. Azərbaycan Ordusunun kapitanı olan Əbülfəz Rəhmətov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində kəşfiyyatçı və motoatıcı taborun qərargah rəisi kimi iştirak etmişdir. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə

vuruşmuşdur. 16 oktyabr 2020-ci ildə Cəbrayıl istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına şəhid olmuşdur. Uzun müddət nəşi tapıla bilməmişdir. Əbülfəz Rəhmətovun nəşi 6 may 2021-ci ildə Lerik rayonunda dəfn edilmişdir. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 24.06.2021-ci il tarixli Sərəncamına əsasən Əbülfəz Rəhmətov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Təltifləri:

26.06.2008 - "Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi" yubiley medalı

26.06.2013 - "Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi" yubiley medalı

26.06.2016 – III dərəcəli "Qüsursuz xidmətə görə" medalı

26.16.2018 – "Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi" yubiley medalı

24.06.2021 – "Vətən uğrunda" medalı (ölümündən sonra)

Qeyd edək ki, şəhid qəhrəmanımız Mayor Amid Heydərovun yaxın dostu olmuşdur.



**Cavadov Cəlil Ağaddin oğlu** 1989-cu il martın 29-da Lerik rayonunun Xəlifəküçə kəndində anadan olub. 1995-2003-cüillərdə Z.Səfərov adına Blaband kənd tam orta məktəbində, 2003-2006-cı illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində ali hərbi təhsili alıb. Azərbaycan Ordusunun kapitanı olan Cavadov Cəlil 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Cavadov Cəlil oktyabrın 27-də Xocavənd döyüşləri zamanı şəhid olub. Lerik rayonunda dəfn edilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavadov Cəlil ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilib. Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını yerinə yetirən zaman mərdliyin və igidliyin göstərilməsinə görə

Azərbaycan Prezidenti İlham Əliyevin 18.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavadov Cəlil ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edildi. Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Cavadov Cəlil ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

Təltifləri:

26.06.2018 – "Azərbaycan Ordusunun 100 illiyi" yubeliy medalı

15.12.2020 – "Vətən uğrunda" medalı (ölümündən sonra)

18.12.2020 – "İgidliyə görə" medalı (ölümündən sonra)

25.12.2020 – "Füzulinin azad olunmasına görə" medalı (ölümündən sonra)

Qeyd edək ki qəhrəmanımız Mayor Amid Heydərovun yaxın dostu olmuşdur.




**Əlisoy Əli İqbal oğlu** 19 mart 1996-cı ildə Şərur rayonunda anadan olmuşdur. 2010-2013-cü ildə Heydər Əliyev adına Ali Hərbi litseyi, 2013-2017-ci ildə Heydər Əliyev adına Ali Hərbi Akademiyanı oxumuşdur. Ağstafa, Tovuz, Beyləqan və Füzuli N saylı hərbi hissələrdə xidmət etmişdir. Vətən müharibəsinə Füzulidə xidmət etdiyi N saylı hərbi hissədə bölük komandiri vəzifəsində xidmət etdiyi zaman qatılmışdır. 3 sədd ön xəttin yarılmasında, 100 nəfər şəxsi heyətin xilas olunmasında və bir texnikamızın yanmaqdan xilas olunmasında iştirak etmişdir. Döyüşlərin ikinci günü sol ayağından yaralanmışdır. Altı əməliyyatdan sonra ayağında beş santimetr qısalma, ayağının 1/3 hissəsinin snayper tüfəngi ilə atılan atəş nəticəsində odlu silah yaralanmasından açıq çoxqəlpəli sınıq diaqnozu ilə ordu sıralarından təxris olunmuşdur. Füzulinin alınması, cəsur döyüşçü və Vətən müharibəsi iştirakçısı medalları ilə təltif olunmuşdur.



**Qazi baş leytenant Şakir Zəfər oğlu** 1 aprel 1996-cı ildə Naxçıvan Muxtar Respublikasında anadan olmuşdur. 2010-2013-cü ildə Heydər Əliyev adına hərbi liseyi, 2013-2017-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Akademiyanı oxumuşdur. Beyləqan, Ağcəbədi, Füzulidə Nsaylı hərbi hissələrdə xidmət etmişdir. Vətən müharibəsinə Füzulidə xidmət etdiyi N saylı hərbi hissədə bölükkomandiri vəzifəsində xidmət etdiyi zaman qatılmışdır. Döyüşlərdə ön xəttin yarılmasında iştirak etmişdir. Qızğın döyüşlər zamanı Füzuli rayonunun Qaraxanbəyli kəndində snayper tüfəngi ilə atılan atəş nəticəsində sol ayağından yaralanmış, ordu sıralarından təxris olunmuşdur. “Füzulinin alınması”, “İgidliyə görə” medalları ilə təltif olunmuşdur.




**Camalov Taleh Musa oğlu** 1999cu il 28 sentyabrda Salyan şəhərində anadan olmuşdur. 2019-cu il 29 dekabrda Azərbaycanın Ordu sıralarında xidmətə başlamışdır. Vətən müharibəsinə Ağcəbədi rayonundakı N saylı hərbi hissədə xidmət etdiyi zaman qatılmışdır. Füzuli, Cəbrayıl, Suqovuşan, Hadrut, Zəngilan, Xocavəndin işğaldan azad olunmasında şücaət göstərmişdir. Son dəfə Xocavənd rayonunda yaralanaraq bir ayağını itirmiş, digər ayağından ağır xəsarət almış, çiyin nahiyəsindən qəlpə yarası almışdır. Döyüşlərdə göstərdiyi şücaətə görə Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması medalları ilə təltif olunmuşdur.



**Nuruzadə İlkin Ələsgər oğlu** 1999-cu il mart ayının 21-də Tərtər rayonunda anadan olmuşdur. 2017-ci il iyul ayında Azərbaycanın ordu sıralarına Dövlət Sərhəd Xidmətində xidmətə başlamışdır. 2019-cu ilin fevral ayında tank komandiri vəzifəsinə yüksəlmiş və gizir kursunu bitirmişdir. 2019-cu ilin may ayının 21-də Füzuli rayonunda N saylı hərbi hissədə tank komandiri kimi xidmətini davam etdirmişdir. Vətən müharibəsinə Füzuli rayonunda N saylı hərbi hissədə xidmət etdiyi zaman qatılmışdır. Döyüşlərin ikinci günü düşmənin ön xəttinin yarıldığı zaman tankı vurulmuş və sağ qolunu itirmişdir. Vətən müharibəsində şücaət göstərdiyinə görə "Füzulinin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilmişdir.

**Polkovnik-leytenant Qurbanov Vüqar Şakir oğlu** 23 sentyabr 1982-ci ildə Qubada anadan olmuşdur. 2000-2004-cü illərdə Heydər Əliyev adına Ali Hərbi Akademiyada oxumuşdur. Amidlə Ağcəbədi rayonunda dost və xidmət yoldaşı olublar. Vətən müharibəsində şücaət göstərdiyinə görə Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan rayonlarının azad olunması medalları və "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Hal-hazırda Azərbaycanın ordu sıralarında xidmətinə davam edir.



**Zahidov Elməddin Elşad oğlu**

23 yanvar 1990-cı ildə Salyan rayonunda anadan olmuşdur. 2011-ci ildə Azərbaycan ordu sıralarında xidmətə başlamışdır. Amidlə Ağcəbədi rayonunda dost və xidmət yoldaşı olublar. Vətən müharibəsində şücaət göstərdiyinə görə Füzuli, Cəbrayıl, Qubadlının azad olunması medalları və hərbi xidmətdə fərqlənmə medalı ilə təltif olunmuşdur.

Hal-hazırda Azərbaycanın ordu sıralarında xidmətini davam etdirir.



**Həsənov İbrahim Ramazan oğlu** 14 aprel 1991-ci ildə Naxçıvan şəhərində anadan olmuşdur. 2005-2008-ci illərdə Heydər Əliyev adına Ali Hərbi Akademiyada oxumuşdur. Amidlə Beyləqanda tanış olmuş, dost və xidmət yoldaşı olmuşlar. Vətən müharibəsində Füzuli, Cəbrayıl istiqamətində sıradan çıxmış texnikaların təxliyəsində iştirak etmişdir. Qubadlının azad olunması medalı və xidmətdə fərqlənmə medalı ilə təltif olunmuşdur.

Hal-hazırda Azərbaycanın ordu sıralarında xidmətini davam etdirir.



**Abdullayev Orxan Yusif oğlu** 25 dekabr 1988-ci ildə Lənkəranda anadan olmuşdur. 2006-2010-cu illərdə Heydər Əliyev adına Ali Hərbi Akademiyada oxumuşdur. Amidlə Akademiyada dost və kursant yoldaşı olublar. Vətən müharibəsi başladıqda torpaqlarımızın azad olunmasında şücaət göstərdiyinə görə Füzuli, Cəbrayıl, Qubadlının azad olunması medalları ilə təltif olunmuşdur.

Hal-hazırda Azərbaycanın ordu sıralarında xidmətini davam etdirir.



Nəcəfov Nahid Səfərəli oğlu 30 noyabr 1989-cu ildə Lənkəranda anadan olmuşdur. 2006-2010-cu illərdə Heydər Əliyev adına Ali Hərbi Akademiyada oxumuşdur. Amidlə Akademiyada dost və kursant yoldaşı olublar. Vətən müharibəsində şücaət göstərdiyinə görə Füzuli, Cəbrayıl, Xocavənd, Zəngilanın azad olunmasına görə və döyüşdə fərqlənmə medalı ilə təltif olunmuşdur.

Hal-hazırda Azərbaycanın ordu sıralarında xidmətini davam etdirir.



Quliyev Şəhriyar İlqar oğlu 8 oktyabr 1987-ci ildə Salyanda anadan olmuşdur. 2006-2010-cu illərdə Heydər Əliyev adına Ali Hərbi Akademiyada dost və kursant yoldaşı olublar. Vətən müharibəsində şücaət göstərdiyinə görə Füzuli, Cəbrayıl, Xocavəndin azad olunması medalları və hərbi xidmətdə fərqlənmə medalı ilə təltif olunmuşdur.

Hal-hazırda Azərbaycanın ordu sıralarında xidmətini davam edir.

# FOTOALBOM


























AZ












PLAN-QRAFİKİ










D 245 QQ








AMİD HEYDƏROV


2019/07/19 16:43


42-BO-536




AZƏRBAYCAN XALQININ ÖZÜNÜ, ÖZ DÖVLƏTİNİ
QORUYA BİLƏN ƏSGƏRLƏRİ, ZABİTLƏRİ, ORDUSU VAR.


QURU QOŞUNLARI


































QURU QOŞUNLARI


QURU QOŞUNLARI
























55-BP-297




STEAMED






AZƏRBAYCAN İGİDLƏRİ!
Amid.H
HƏZİ ASLANOVUN DAVAMÇILARI








QALİB ÖLKƏNİN



QALİB ÖLKƏNİN



MÜHARİBƏSİ QƏHRƏMANI MAYOR AMİD
ƏZİZ XATİRƏSİ
Vətən
Müharibəsi
Qəhrəmanı
Mayor Amid
Heydərov
047 NÖMRƏLİ HƏRBİ
ADINDAN XATİRƏ


Azercell






HEYDƏROVUN əziz XATİRƏSİN




"VƏTƏN MÜHARİBƏSİ
QƏHRƏMANI"ŞƏHİD
HƏRBİ HİSSƏ KOMANDİRİ
MAYOR HEYDƏROV AMİD
RƏBBİL OĞLU
20.05.1988 - 03.10.2020


"VƏTƏN MÜHARİBƏSİ
QƏHRƏMANI"ŞƏHİD
HƏRBİ HİSSƏ KOMANDİRİ
MAYOR HEYDƏROV AMİD
RƏBBİL OĞLU
20.05.1988 - 03.10.2020


VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANI MAYOR AMİD HEYDƏROVUN ƏZİZ XATİRƏSİNƏ


Azercell
Eyfel Telekom
QALİB ÖLKƏNİN QƏHRƏMANI AMİD
Qarabağ
Şəhid Bulağı


AMİD HEYDƏROV ADINA PARK






2006-2010
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASINA XİDMƏT EDİRƏM.

## Epiloq

27 Sentyabrda başlanan 44 günlük davam edən haqq savaşı, Vətən müharibəsi...

Bu savaşda igidlər artıq düşməni susdurmaq üçün yox, Polad Həşimovun, şəhidlərin sərdarı Mübariz İbrahimovun, Xocalının qisasını almaq üçün irəliləyirdilər. Amid də bu igidlərimizdən biridir. Hamıya məlumdur ki, ürəyi Vətən sevgisi ilə döyünən igidlər müharibə başlayanda geridə durmayacaqlar. Hələ Aprel və Tovuz döyüşləri zamanı igidlərimiz düşməni layiqində susdurmuşdular. Vətən müharibəsində də onlar öz canı, qanı bahasına bu torpaqları aldılar. Bizə yenidən Azad Azərbaycanın azad vətəndaşı adını qazandırdılar.

Bu 44 gün ərzində Azərbaycan xalqı hər zaman igidlərimizə dəstəklərini əsirgəmədilər. Çünki onlar bilirdilər ki, əsgərlərimiz 1991-1994-cü illərdə analarımızın fəryadını və şəhidlərimizi düşünüb, silaha sarılıblar. Həm 44 gündə, həm də müharibədən sonra xalqımız igidlərimizi unutmadı. Şəhidlərimizin ruhu şad olsun! Allah şəhidlərimizə şahidlik edən qazilərimizə şəfa versin!

Vətən sağ olsun! Siz də sağ olun! Cənab Prezident İlham Əliyevin də dediyi kimi: QARABAĞ AZƏRBAYCANDIR!

Kitabın ərsəyə gəlməsində mənəvi dəstəyə görə:

- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin müəllimi Fəxriyyə Həsənoğlu Fəxri qızına

-Maddi dəstəyə görə yazıçının atası Əliyev Asəf İsa oğluna dərin minnətdarlığımızı bildiririk.

Dizayner:
Əlizadə Kənan

Çapa imzalanıb 03.10.2021
Formatı 60x90 1/16
Ofset kağız №1
Fiz. çap. vər. 7.5

Kitab “APOSTROF-A“ nəşriyyatında
ofset üsulu ilə çap edilib.
E-mail: apostrof0706@gmail.com
Tel: +99412 432 51 04 / +99450 313 07 06